RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 49 (8365) ÇƏRŞƏNBƏ, 4 mart 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## *Prezident İlham ƏLİYEV:* "Biz 20-yə yaxın ən islahatçı ölkə arasında yer almışıq"



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti Yurgen Riqterinkin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz. Sizi görməyə çox şadam. Ümidvaram ki, səfəriniz çox məhsuldar keçəcək. Bildiyiniz kimi, Davos Forumu zamanı Prezident Çakrabarti ilə görüşmək, gələcək planlarımızı müzakirə etmək və görülən işləri bir qədər nəzərdən keçirmək imkanımız oldu. Əməkdaşlığın səviyyəsi bizi çox qane edir. Azərbaycan üçün portfolio 3,5 milyard dolları ötüb. Mənə verilən məlumata görə, bu, 170-dən çox layihədir. Yaxşı məqam ondadır ki, bunun yarısı özəl sektorun payına düşür. Düşünürəm ki, bu, həm də Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinin çox yaxşı göstəricisidir. Çünki Azərbaycanda özəl sektor bu sahədə cəmləşib. Biz onların rəqabətqabiliyyətli olmasına kömək etmək üçün işləyirik. Şadıq ki, qeyri-enerji ixracatımız artır. Bu, şaxələndirilmənin göstəricisidir. Əlbəttə ki, biz daha çox iş görməliyik. Biz, həmçinin lazım olan zaman infrastruktur layihələrimizə verdiyi güclü dəstəyə görə Avropa Yenidənqurma və İnkişaf Bankına minnətdarıq. Lakin indi onların əksəriyyəti uğurla tamamlanıb. "Cənub qaz dəhlizi"nə dəstəyə görə sizə xüsusi təşəkkürümü bildirmək istəyirəm. Biz bu yaxınlarda Məşvərət Şurasının 6-cı toplantısı çərçivəsində il ərzində görülən işləri və gələcək planları nəzərdən keçirdik. Beləliklə, tərəfdaşlıq hər zaman çox müsbət olub və müxtəlif vaxtlarda biz diqqəti Azərbaycan iqtisadiyyatının praktiki ehtiyacları üzərində cəmlədik. Düşünürəm ki, bu, həmçinin çox çevik və yekun nəticəyə istiqamətlənmiş yanaşmanın yaxşı göstəricisidir. Sözsüz ki, əməkdaşlığımız ərzində Azərbaycan bütün sahələrdə, o cümlədən iqtisadi sahədə çox dəyişib. Ona görə də, indi qarşımızda duran çağırışlar və məsələlər 10 il bundan əvvəl üzləşdiklərimizdən fərqlidir. Beləliklə, bizim əsas istiqamətimiz özəl sektor, qeyri-enerji iqtisadiyyatı, yaşıl iqtisadiyyat, sənaye istehsalının artırılmasıdır. Biz qeyri-enerji sektorunda sənaye istehsalında bəlkə də ən yüksək səviyyəyə nail olmuşuq.

*Ardı 7-ci səh.*

## Tərəfdaşlıq münasibətləri qədim tarixə malikdir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Rusiya Federasiyasının Rostov vilayətinin qubernatoru Vasili Qolubevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz, sizi görməyə çox şadam. Əminəm ki, səfəriniz məhsuldar və xoş olacaq. Bizi qədim dostluq telləri bağlayır. Şadam ki, bu gün bizə gəlmisiniz. Əlbəttə, sizin səfərinizin gündəliyi yetərincə zəngindir. Bildiyimə görə, çoxlu görüşləriniz olacaq. Mənim fikrimcə, bu görüşlərin hamısı çox konstruktiv olacaq və onların nəticələrinə əsasən gələcək əməkdaşlıq yollarını planlaşdıracağıq. Ona görə ki, həm əmtəə dövriyyəsinin artırılması, həm də investisiya layihələrinin, mədəni layihələrin həyata keçirilməsi sahəsində böyük potensial var. Ümumiyyətlə, biz qonşuyuq, demək olar ki, eyni regionda yaşayırıq. Buna görə də, kənd təsərrüfatı istiqamətləri, ümumiyyətlə, oxşardır. Odur ki, kooperasiya üzrə istiqamətlər çoxdur. Bildiyiniz kimi, biz sizin kənd təsərrüfatı texnikasından fəal istifadə edirik və bizim fermerlər razıdırlar. Beləliklə, görüləsi işlər çoxdur, gündəlik zəngindir. Ümidvaram ki, səfəriniz çox səmərəli olacaq. Bir daha xoş gəlmisiniz.

**Rostov vilayətinin qubernatoru Vasili QOLUBEV** dedi:

- Sağ olun, İlham Heydər oğlu. Əvvələn, səmimi qəbul üçün Sizə təşəkkür edirik. Biz artıq işə başlamışıq və xeyli görüşlər olub. Biznes nümayəndələri işləyirlər. Bilirəm ki, bu layihələr çox konkretdir, hər iki tərəfin marağına uyğundur. Bu, Sizin dediyiniz kimi, maşınqayıranlara da, "Waterfall PRO" şirkətinə də aiddir. Polimerlər istehsal edən bu şirkət xammalı Azərbaycandan alır. Potensial böyükdür, təqribən 60 min ton məhsuldan söhbət gedir. Ümidvaram ki, həmin şirkətlərlə əldə edilmiş razılaşmalar reallaşacaq. Onlar praktiki olaraq reallaşmağa başlayıb. Rostov vilayəti geniş şaxələndirilmiş regiondur. Son illərdə bizdə sənaye sektorunun, aqrar sənaye sektorunun inkişaf dinamikası yaxşıdır. Turizm potensialının inkişaf etdirilməsi üçün gözəl imkanlarımız var. Bir neçə şirkət elə bu gün əlaqələrin inkişafı barədə sazişlər imzalamağa hazırdır - sabah bu sazişlər imzalanacaq.

*Ardı 7-ci səh.*

### Azərbaycan Prezidenti İlham Əliyevin Goranboy, Şəmkir və Qazax rayonlarına səfəri



## Goranboyda Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Goranboy rayonuna səfərə gəlib.

Dövlət başçısı Goranboy şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev Prezident İlham Əliyevə rayonda görülən işlər barədə məlumat verdi.

***AZƏRTAC***

## Qızılhacılı-Goranboy-Goran-Rəhimli-Veyisli-Qazanbulaq-Borsunlu yolunun açılışı olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Goranboy rayonuna səfəri çərçivəsində Qızılhacılı-Goranboy-Goran-Rəhimli-Veyisli-Qazanbulaq-Borsunlu avtomobil yolunun yenidənqurmadan və bərpadan sonra açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov görülən işlər barədə dövlət başçısına məlumat verdi.

*Ardı 2-ci səh.*



## Bolqarıstan Respublikasının Prezidenti zati-aliləri cənab Rumen Radevə

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizi və dost Bolqarıstan xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan-Bolqarıstan ikitərəfli münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. İnanıram ki, strateji tərəfdaşlıq əlaqələrimiz birgə səylərimizlə xalqlarımızın rifahı naminə daha da güclənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, xalqınıza daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2020-ci il*

## Azərbaycanda koronavirusa qarşı mübarizə gücləndirilir

Yeni növ koronavirus xəstəliyi (COVID-19 ) getdikcə bütün dünyaya yayılır. Koronavirusu digər qrip növlərindən təhlükəli edən də elə sürətlə yoluxma xüsusiyyətidir.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) koronavirus xəstəliyinə yoluxma hallarına dair martın 2-nə olan məlumatına əsasən, son 24 saat ərzində Ermənistan, Çexiya, Dominikan Respublikası, Lüksemburq, İslandiya və İndoneziyada koronavirus xəstəliyinə (COVID-19) ilk yoluxma halları qeydə alınıb.

Təsdiqlənmiş yoluxma hallarının sayı:

Dünyada: 88 948 (1804 yeni)
Çində: 80 174 (206 yeni)
2915 ölüm halı (42 yeni)
Çinin xaricində:
8774 yoluxma halı (1598 yeni)
64 ölkə (6 yeni)
128 ölüm halı (24 yeni)

ÜST koronavirusla bağlı risk qiymətləndirilməsini Çində, regional və qlobal səviyyədə çox yüksək hesab edir.

*Ardı 11-ci səh.*



## *Azərbaycan-Türkiyə:* bənzərsiz qardaşlıq nümunəsi

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Xocalı qətliamının növbəti ildönümü ərəfəsində ölkəmizə səfəri siyasi-iqtisadi əhəmiyyət kəsb etdiyi qədər mənəvi amillərə söykənir və bir çox məqamlara işıq salır.**

Dünyada iki elə ölkə tapmaq mümkün deyil ki, Azərbaycan və Türkiyə qədər qırılmaz tellərlə bir-birinə bağlansınlar.

Bütün sivil ölkələr arasında siyasi və ikitərəfli münasibətlər qurulur, müqavilələr bağlanılır, qarşılıqlı əməkdaşlıq inkişaf etdirilir.

*Ardı 7-ci səh.*

## Şəmkir rayonunun Şəmkir-Zəyəm-Düyərli (18 km)-Zəyəm Cırdaxan-Tatarlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. İyirmi iki min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Şəmkir-Zəyəm-Düyərli (18 km)-Zəyəm Cırdaxan-Tatarlı avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün göstərilmiş vəsaitin 7,5 milyon (yeddi milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2020-ci il*

# Azərbaycan Prezidenti İlham Əliyevin Goranboy, Şəmkir və Qazax rayonlarına səfəri

## Qızılhacılı-Goranboy-Goran-Rəhimli-Veyisli-Qazanbulaq-Borsunlu yolunun açılışı olub






*Əvvəli 1-ci səh.*

Bildirildi ki, uzunluğu 40 kilometr olan yol üçüncü və dördüncü texniki dərəcəlidir. Hərəkət hissəsinin eni 7-8 metr arasında dəyişən yolda iki hərəkət zolağı var. Bu yolun tikintisi dövlət başçısının ötən ilin fevralında imzaladığı sərəncama əsasən həyata keçirilib. Ümumilikdə 32 min əhalini əhatə edən 15 yaşayış məntəqəsini birləşdirən Qızılhacılı-Goranboy-Goran-Rəhimli-Veyisli-Qazanbulaq-Borsunlu avtomobil yolunun tikintisinə dövlət büdcəsinin investisiya xərclərindən 21 milyon manatdan çox vəsait ayrılıb. Bu yol həmin yaşayış məntəqələrinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında mühüm əhəmiyyət kəsb edəcək.

Ağcakənd yolunun vəziyyəti ilə maraqlanan **Prezident İlham ƏLİYEV** dedi:

- Ağcakənd strateji məntəqədir. Bizim köçkünlər üçün tikilmiş birinci şəhərcik də orada yerləşir. O vaxt Ulu Öndərin iştirakı ilə açılışı olub.

Mən də orada idim. Orada erməni işğalı nəticəsində öz torpaqlarından didərgin düşmüş köçkünlər məskunlaşıblar. Ona görə o yol daim diqqət



mərkəzində olmalıdır. Əgər təmirə ehtiyac varsa, mənə məruzə edərsiniz.

Qeyd edək ki, regionların inkişafı Dövlət proqramlarına uyğun olaraq son illərdə yol infrastrukturunun inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Avtomobil yollarının tikintisi və yenidən qurulması işlərinin həcmi ildən-ilə artır. Hazırda respublikanın nəqliyyat-yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı dövlət büdcəsi vəsaiti hesabına irimiqyaslı layihələr uğurla icra olunur.

Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə uyğun olaraq indi əsas diqqət regionlarda kənd və qəsəbələri birləşdirən yolların, həmçinin yaşayış məntəqələrinin daxili yollarının təmirinə və yenidən qurulmasına yönəldilib. Bu tədbirlər ilk növbədə vətəndaşların həyatının yaxşılaşdırılmasına yönələn layihələrin davamlı olmasını nümayiş etdirir. Belə layihələrdən biri də Qızılhacılı-Goranboy-Goran-Rəhimli-Veyisli-Qazanbulaq-Borsunlu avtomobil yolunun tikintisidir.

Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

# Goranboy Rayon Mərkəzi Xəstəxanası istifadəyə verilib







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Goranboy Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı xəstəxananın rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyev xəstəxanada yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, 130 çarpayılıq Goranboy Rayon Mərkəzi Xəstəxanasının ərazisi 4 hektardır. Tikintinin ümumi sahəsi isə 21 min kvadratmetrdən çoxdur. Cərrahiyyə, terapiya, pediatriya, fizioterapiya, funksional diaqnostika, poliklinika, hemodializ şöbələrinin fəaliyyət göstərdiyi xəstəxanada xaricdə istehsal olunan ən müasir tibbi avadanlıqlar quraşdırılıb. Bu tibb müəssisəsində şüa-diaqnostika, reanimasiya, qəbul, laboratoriya, təcili tibbi yardım və digər şöbələr də fəaliyyət göstərir. Xəstəxanada əsas korpusla yanaşı, yoluxucu xəstəliklər korpusu, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Goranboy rayon şöbəsi yerləşir.

Sonra Prezident İlham Əliyev xəstəxananın kollektivi ilə görüşdü.

Dövlət başçısı görüşdə çıxış etdi.

# Prezident İlham Əliyevin çıxışı

- Goranboy Rayon Mərkəzi Xəstəxanasının açılışı münasibətilə sizi təbrik edirəm. Çox şadam ki, qısa müddət ərzində Goranboy şəhərində gözəl tibb mərkəzi yaradılıb. Mənim sərəncamımla iki il yarım bundan əvvəl tikinti başlamışdı və bu gün biz birlikdə bu xəstəxananı açırıq. Özünüz görürsünüz ki, burada bütün şərait ən yüksək standartlara cavab verir. Həm binanın özü çox müasirdir, yaraşıqlıdır, həm də burada quraşdırılan avadanlıqlar aparıcı şirkətlərin məhsuludur. Bu avadanlıqlar dünyanın aparıcı xəstəxanalarında olan avadanlıqlardan fərqlənmir. Belə də olmalıdır. Çünki mən demişəm ki, Azərbaycanda səhiyyə sahəsinin maddi-texniki bazası ən yüksək səviyyədə olmalıdır və biz buna nail oluruq.

Son 16 ildə Azərbaycanın ancaq bölgələrində 22 yeni xəstəxana, 15 diaqnostika müalicə mərkəzi inşa edilib, 28 mərkəzi rayon xəstəxanası əsaslı təmir olunub. Beş xəstəxananın tikintisi isə davam edir. Beləliklə, ancaq bölgələrdə 70 müasir tibb ocağı istifadəyə verilib. Əlbəttə ki, bu tibb ocaqları insanların sağlamlığına xidmət göstərir. Bakı şəhərində də bir çox xəstəxanaların tikintisi, təmiri artıq yekunlaşıb. Bütövlükdə, son 16 ildə ölkəmizdə 700-dən çox tibb müəssisəsi tikilib və əsaslı təmir olunub.

Əlbəttə ki, buna böyük vəsait lazımdır və dövlət büdcəsinin xətti ilə bu vəsait ayrılır. O cümlədən bu xəstəxana da dövlət investisiya proqramı çərçivəsində, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının əsasında inşa edilib. Bunun əsas məqsədi vətəndaşlara keyfiyyətli tibbi xidmətin göstərilməsidir.

Bu gün demək olar ki, bütün şəhərlərimizdə müasir tibb müəssisələri fəaliyyət göstərir. Bu tibb müəssisələrində həm müalicə, həm də diaqnostika aparmaq üçün bütün imkanlar var. Təsadüfi deyil ki, ildən-ilə müayinədən keçən vətəndaşların sayı artır və keçən il 5 milyona çatıb. Beş milyondan çox insan tibbi müayinədən keçib. Mən 10 il bundan əvvəl vətəndaşlara belə bir tövsiyə etmişdim ki,



ildə bir dəfə hər bir vətəndaş müayinədən keçsin, öz sağlamlığı haqqında onda da, həkimlərdə də məlumat olsun, lazım olan halda müalicə alsın, cərrahiyyə əməliyyatından keçsin. Ancaq o vaxt lazımi şərait yox idi, bu gün isə bu şərait var. Ona görə belə gözəl tibb mərkəzinin yaradılması bizim siyasətimizin göstəricisidir. Baxmayaraq ki, buradan o qədər də uzaqda olmayan Naftalan şəhərinin müasir tibb ocağı var və kiməsə belə gələ bilərdi ki, o xəstəxana Goranboy sakinləri üçün də xidmət göstərə bilər. Ancaq mən dedim ki, yox, Goranboyda xüsusi olaraq mərkəzi rayon xəstəxanası tikilməlidir. Çünki əvvəlki xəstəxananın binası artıq heç bir standartlara cavab vermirdi.

Bu, bir daha onu göstərir ki, bu istiqamətdə məqsədyönlü dövlət siyasəti aparılır. Belə gözəl şəraitdə həkimlər, əlbəttə ki, xəstələrə keyfiyyətli tibbi xidmət göstərməlidirlər. Xəstəxana eyni zamanda həkimlərin iş yeridir. Mənə verilən məlumata görə, burada 125 həkim və çox sayda tibb işçisi fəaliyyət göstərir. Ona görə belə gözəl şəraitin yaradılması həkimlərin məsuliyyətini də artırmalıdır. Xəstələrə həm diqqət və qayğı, həm də keyfiyyətli tibbi xidmət göstərilməlidir. Əminəm ki, bu xəstəxananın həkimləri vətəndaşlara keyfiyyətli tibbi xidmət göstərəcəklər.

Hazırda dünya gündəliyini zəbt edən koronavirus məsələsidir və demək olar ki, bütün ölkələrdə bu məsələ müzakirə olunur. Azərbaycana gəldikdə, deyə bilərəm ki, vəziyyət nəzarət altındadır və mənim göstərişimlə Nazirlər Kabinetinin yanında xüsusi operativ qərargah yaradılıb. Eyni zamanda göstəriş vermişəm əlavə 10 milyon manat vəsait ayrılsın ki, lazımi tədbirlərin görülməsi daha sürətlə aparılsın. İranda qalan Azərbaycan vətəndaşlarının təxliyə edilməsi üçün xüsusi tədbirlər həyata keçirilir. Onların həm quru sərhəddən, həm də hava nəqliyyatı vasitəsilə Azərbaycana gətirilməsi təmin ediləcək. Ancaq hər kəs anlamalıdır, onlar lazım olan müddət ərzində karantində qalmalıdırlar ki, Azərbaycanda xəstəlik yayılmasın.

Eyni zamanda məktəblərin, ali məktəblərin, uşaq bağçalarının müvəqqəti olaraq bağlanması haqqında müvafiq göstərişlər verilibdir. Bunun da məqsədi uşaqları, yeniyetmələri o xəstəlikdən qorumaqdır.

*Ardı 3-cü səh.*

# Goranboy Rayon Mərkəzi Xəstəxanası istifadəyə verilib

Əvvəli 2-ci səh.

Yəni bütün lazımi tədbirlər görülür. Azərbaycanda bu xəstəliyin bu günə olan məlumata görə, yayılması ehtimalı o qədər də yüksək deyil. Ancaq deyə bilərəm ki, gündə bir neçə dəfə bu məsələ ilə bağlı ölkə ərazisində monitorinqlər aparılır, bütün sərhəd-keçid məntəqələrində xüsusi cihazlar quraşdırılıbdır.

Onu da deyim ki, heç bir ölkə bu günə qədər yükdaşımalarının həyata keçirilməsinə məhdudiyyət qoymayıbdır, o cümlədən Azərbaycan da. Bildiyiniz kimi, Azərbaycan tranzit ölkədir və biz uzun illər çalışırdıq ki, öz tranzit potensialımızı genişləndirək, buna nail ola bilmişik. Heç bir tranzit yüklər üçün məhdudiyyət qoyulmur. Ancaq bu sahəyə də xüsusi diqqət göstərərək tranzit yüklərin, xüsusilə cənub istiqamətindən ölkəmizə daxil olan, həm Azərbaycan istehlakçıları, həm də qonşu ölkələrin istehlakçıları üçün lazımi yüklərin çatdırılması ilə bağlı mütəşəkkil qaydada işlər aparılır, müvafiq yük maşınlarından ibarət xüsusi kolonlar formalaşdırılır, polis müşayiəti təmin edilib. Eyni zamanda göstəriş vermişəm xarici sürücülərə yemək təqdim edilsin ki, onlar idarə etdikləri maşınlardan tez-tez çıxıb ictimai yerlərə getməsinlər. Yəni hər bir xırdalığa qədər düşünülmüş addımlar atılır, bunun da məqsədi Azərbaycan vətəndaşlarını bu xəstəlikdən qorumaqdır. Bu günə qədər bizim bütün addımlarımız uğurla nəticələnib. Biz daim Ümumdünya Səhiyyə Təşkilatı ilə təmasdayıq və xəstəliyi aşkar etmək üçün testlərin ölkəmizə gətirilməsi ilə bağlı işlər aparılır, bu məsələ öz həllini tapır.

Mənə verilən məlumata görə, son vaxtlar apteklərdə maskaların çatışmazlığı müşahidə olunur. Buna heç cür izahat tapmaq mümkün deyil. Çünki bizim kifayət qədər maska ehtiyatlarımız var. Görünür ki, hansısa möhtəkirlər bu vəziyyətdən istifadə edərək öz qanunsuz gəlirlərini artırmaq istəyirlər. Bütün hüquq-mühafizə orqanlarına tapşırıq verilib ki, əgər belə hallar aşkar olunarsa, bu hallara yol verən vətəndaşlara qarşı ən ciddi cəza tədbirləri tətbiq ediləcəkdir. Çünki indiki şəraitdən istifadə edərək öz tamahını təmin etmək üçün bəd əməllərə üz tutan ünsürlərə qarşı ancaq çox ciddi cəza tədbirləri tətbiq edilməlidir.

Ona görə bir daha Azərbaycan ictimaiyyətini əmin etmək istəyirəm ki, Azərbaycan hökuməti bütün lazımi tədbirləri görür. Bu günə olan mənzərəyə görə, narahatlığa heç bir ciddi əsas yoxdur. Karantində qalan vətəndaşların mütləq əksəriyyətində hələ ki heç bir xəstəlik əlaməti aşkarlanmayıb. Əgər onların sağlamlığı normal olarsa, lazımi müddətdən sonra evlərinə buraxılacaqlar. Hesab edirəm ki, bu günə qədər bu məlumat kifayətdir. Eyni zamanda göstəriş verilib ki, bu məsələ ilə bilavasitə məşğul olan bütün səhiyyə orqanlarının nümayəndələri - Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta Agentliyi müntəzəm olaraq vətəndaşları məlumatlandırsınlar.

Bir daha demək istəyirəm ki, bizim səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi, eyni zamanda gözlənilməz hadisələrə də hesablanıb. Əlbəttə, biz belə gözəl xəstəxanaları ona görə inşa edirik ki, vətəndaşlar bundan istifadə etsinlər. Həmçinin hansısa bir fors-major vəziyyətdə, əlbəttə ki, belə tibb ocaqlarının mövcudluğu bizim imkanlarımızı genişləndirir. Şadam ki, Goranboy rayonunda belə gözəl tibb müəssisəsi artıq fəaliyyət göstərir.





Goranboy rayonunda dövlət xətti ilə bir çox infrastruktur layihələri icra edilib. Mənim göstərişimlə burada qazlaşdırmanın səviyyəsi 96 faizə çatıb. İndi qalan kəndlərin qazlaşdırılması nəzərdə tutulur. Bir neçə önəmli yol layihəsi icra edilib. Onlardan birini biz bu gün açmışıq. Yenə də vətəndaşların təklifləri var ki, yeni yolların, kənd yollarının çəkilişi təmin edilsin. Müvafiq göstərişlər veriləcək, sərəncam imzalanacaq. Təmirli yollar 65 faizə çatıb. Şəhərin içməli su ilə bağlı problemi 2014-cü ildə öz həllini tapdı. Mənim iştirakımla burada bu böyük layihənin açılışı həyata keçirilmişdir. Müasir Olimpiya İdman Kompleksi tikilir. Bu da idmançılar və ümumiyyətlə, vətəndaşlar üçün çox lazımlı bir obyektdir. Çünki mən demişəm və bir daha demək istəyirəm ki, hər bir insan müntəzəm surətdə idmanla məşğul olmalıdır. Vaxtilə demişdim ki, hər bir insan müayinədən keçməlidir və biz buna demək olar ki, nail oluruq, əminəm ki, buna da nail olacağıq. Əgər hər bir insan müntəzəm olaraq idmanla məşğul olsa, onun sağlamlığı da yerində olacaq, immuniteti də yüksək olacaq və o, çox keyfiyyətli həyat tərzi sürərək həm çox yaşayacaq, həm də ki həyatdan zövq alacaq.

Bundan sonra da Goranboy rayonunun inkişafı, iş yerlərinin yaradılması ilə bağlı əlavə tədbirlər görüləcək. Goranboyda xalça fabriki açılıb. Bir sözlə, həm infrastruktur layihələri, həm sosial obyektlər, iş yerlərinin yaradılması ilə bağlı olan layihələr icra edilir və ediləcək. Bir daha sizi bu gözəl xəstəxananın açılışı münasibətilə təbrik edirəm, sizə uğurlar arzulayıram, qarşıdan gələn bayramlar münasibətilə, Novruz bayramı münasibətilə təbrik edirəm.

**Xəstəxananın həkimi Gülnarə ASLANOVA:** Möhtərəm cənab Prezident, icazə verin, Sizi Goranboy sakinləri adından salamlayım və rayonumuza "Xoş gəlmisiniz!" deyim. Bu gün bizim üçün əlamətdar bir gündür. 2017-ci ildə Sizin sərəncamınızla Goranboy Rayon Mərkəzi Xəstəxanasının tikintisinə start verilmişdi. Heç ağlımıza gəlməzdi ki, bir neçə ildən sonra Goranboyda belə bir möhtəşəm xəstəxananın açılış mərasiminə yığışacağıq. Ona görə də bu gün Sizə Goranboy sakinləri adından dərin minnətdarlığımı bildirirəm. Tibb kollektivi olaraq Azərbaycan səhiyyəsinin qarşımıza qoyduğu vəzifələri layiqincə yerinə yetirəcəyimizə söz verirəm.

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm. Çox sağ olun.

**Həkim İlqar MUSAYEV:** Cənab Prezident, Goranboy camaatı, respublikamızın əhalisi, bütün dünya azərbaycanlıları bayram əhval-ruhiyyəsi içərisindədir. Milli bayramımız Novruz gəlir. Bu bayram bizim üçün əzizdir. Eyni zamanda Sizin Goranboy rayonuna səfəriniz bu bayram əhvali-ruhiyyəsini ikiqat artırır. Artıq neçə ildir ki, Goranboy əhalisi belə bir möhtəşəm binanın tikilib istifadəyə verilməsini arzulayırdı. Hər dəfə Sizin gəlişinizi gözləyirdik, Siz gələsiniz, bu xəstəxana açılsın. Allaha çox şükür, gəldiniz, bu xəstəxananın açılışında iştirak etdiniz, mübarək qədəmlərinizlə xeyir-duasını verdiniz. Allah Sizə cansağlığı versin. Goranboy camaatı adından təşəkkür edirik.

❖ ❖ ❖

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə səhiyyə sisteminin təkmilləşdirilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülüb. Son illərdə ölkəmizdə yüzlərlə tibb müəssisəsi tikilib və ya əsaslı təmir edilib. Bu sahədə aparılan ardıcıl islahatlar səhiyyə sisteminin yeni, müasir mərhələyə qədəm qoymasına hərtərəfli zəmin yaradıb. Təqdirəlayiq haldır ki, səhiyyə sahəsinin inkişafı ilə bağlı icra olunan layihələr respublikanın bütün bölgələrini əhatə edib. Goranboy Rayon Mərkəzi Xəstəxanasının inşası da bu qəbildən olan tədbirlərdəndir. Bu cür müasir xəstəxana və tibb ocaqlarının inşası ilk növbədə vətəndaşların sağlamlığının qorunması, onların müayinə-müalicə işini yüksək səviyyədə qurmaq üçün atılan addımlardandır. Bu xəstəxanaların müasir, son texnoloji yeniliklərə əsaslanan avadanlıq və qurğularla təchiz olunması ölkəmizin ümumi inkişafının göstəricisidir. Bütün bunlar sübut edir ki, səhiyyə sisteminin təkmilləşdirilməsi Azərbaycanda həyata keçirilən dövlət siyasətində prioritet məsələ kimi daim diqqət mərkəzindədir və sosial siyasətdə mühüm yer tutan səhiyyə islahatları uğurla, həm də məqsədyönlü şəkildə davam etdirilir.

Sonda xatirə şəkli çəkdirildi.

# Prezident İlham Əliyev "Azərxalça" ASC-nin Goranboy filialının fəaliyyəti ilə tanış olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Goranboy filialının fəaliyyəti ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, "Azərxalça" ASC-nin İdarə Heyətinin sədri Vidadi Muradov Prezident İlham Əliyevə müəssisədə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 1200 kvadratmetrdən çox olan filialın binasının tikintisi dövlət başçısının 2018-ci ilin mayında imzaladığı sərəncama əsasən həyata keçirilib. Bina toxuculuq emalatxanası, anbar, yeməkxana, tibb otağı, xalça-satış salonu, konfrans zalı və digər bölmələrdən ibarətdir. Emalatxanada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq. Əsasən Gəncə şəhərində, Daşkəsən, Goranboy, Gədəbəy, Samux və Şəmkir rayonlarının kəndlərində toxunan orijinal xalça çeşnilərinə üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikanın bölgələrindən toplanılan qədim və orijinal xalçalar əsasında "Azərxalça"nın rəssamları tərəfindən hazırlanıb. Emalatxana zəruri xammal və ləvazimatlarla - müxtəlif rəngli yun iplərlə, həvə, qayçı və bıçaqla təmin edilib. Burada 150 nəfər toxucunun və 14 nəfər inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulub. Toxucular Goranboyun yaşayış məntəqələrinin sakinləridir. Onlar bir neçə ay ərzində "Azərxalça"nın burada təşkil olunmuş tədris-hazırlıq kurslarında iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər.

Qeyd edək ki, Azərbaycan xalçaları bütün dövrlərdə dünyanı heyran qoyub, milli naxışlarımızın şöhrəti dünyanı qarış-qarış gəzib, ətrafında böyük diqqət toplayıb. Azərbaycan xalçalarının ta qədimlərdən başlayan şöhrəti bu gün yeni layihələrlə zənginləşir. Prezident İlham Əliyevin sərəncamı ilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yaradılması da məhz bu amildən qaynaqlanıb. Cəmiyyətin əsas məqsədi xalça və xalça məmulatlarının istehsalı, ixracı, onların ölkə daxilində və xaricdə satışının təşkili, xalça istehsalında yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadədir. "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti fəaliyyətə başlayandan artıq onun bir çox regionlarda filialları yaradılıb. Goranboy filialı da xalçaçılığın bu regionda inkişafına ciddi töhfə verəcək.









# Şəmkirdə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Şəmkir rayonuna səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı əvvəlcə Şəmkir şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov rayonda görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verdi.

# Prezident İlham Əliyev Şəmkir-Abbaslı-Nərimanlı avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak edib







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Şəmkir-Abbaslı-Nərimanlı avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına görülən işlərlə bağlı məlumat verdi.

Bildirildi ki, ümumi uzunluğu 15 kilometr olan bu yol 2018-ci ilin investisiya xərclərindən ayrılmış vəsait hesabına inşa olunub. Yolun tikintisi 71 min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini rayon mərkəzi ilə birləşdirməklə yanaşı, sakinlərin respublika əhəmiyyətli Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yoluna çıxışını təmin edir.

Saleh Məmmədov Goranboy və Şəmkir rayonlarının ərazisindəki yolların yenidən qurulması ilə bağlı görülən işlər barədə də dövlət başçısına məlumat verdi.

Prezident İlham Əliyev işlərin keyfiyyətlə görülməsi barədə tapşırıq və tövsiyələrini verdi.

Dövlət başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

# “Şəmkirçay” Sutəmizləyici Qurğular Kompleksi istifadəyə verilib



Martın 3-də “Şəmkirçay” Sutəmizləyici Qurğular Kompleksi istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.

Şəmkirçay su anbarının ehtiyatlarının daxili mənbələr hesabına formalaşması ölkəmizin su təhlükəsizliyi baxımından strateji əhəmiyyət daşıyır. 2014-cü ildə istismara verilən və ümumi tutumu 164 milyon kubmetr olan anbar əkin sahələrinin suvarılması ilə yanaşı, respublikanın qərb bölgəsində yaşayan əhalinin içməli su təminatına da töhfələr verməkdədir. Burada toplanan suyun içməli su standartlarına uyğun olması, eyni zamanda təbii durulmadan keçməsi nəzərə alınaraq anbardan həm də içməli su mənbəyi kimi istifadəyə qərar verilib. Anbarın relyef baxımından Gəncə, Şəmkir, Samux şəhərlərindən yüksəklikdə yerləşməsi yaşayış məntəqələrinin özüaxımlı rejimdə dayanıqlı su təchizatına imkan yaradır. Bütün bunlar nəzərə alınaraq “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin sifarişi ilə su anbarının yaxınlığında məhsuldarlığı gündə 140 min kubmetr və ya saniyədə 1,6 kubmetr olan sutəmizləyici qurğular kompleksi inşa edilib. Bu kompleks məhsuldarlığına görə Azərbaycanın regionlarında tikilmiş ən böyük içməli sutəmizləyici qurğudur.

Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov rayonun aqrar sənaye kompleksində görülən işlər barədə dövlət başçısına məlumat verdi.

Sonra Prezident İlham Əliyev “Şəmkirçay” Sutəmizləyici Qurğular Kompleksinin açılışında iştirak etdi.

“Azərsu” ASC-nin sədri Qorxmaz Hüseynov kompleksin texniki-iqtisadi göstəriciləri barədə dövlət başçısına məlumat verdi.

Bildirildi ki, kompleksin tikintisinə 2016-cı ildə başlanılıb. Bu məqsədlə Şəmkir rayonunun Aşağı Seyfəli kəndinin cənub hissəsində, Şəmkirçay su anbarının yaxınlığında 3,3 hektar ərazi ayrılıb. Ərazidə qazıntı və kipləşdirmə işləri aparıldıqdan sonra bina və qurğuların tikintisinə başlanılıb. Kompleksin əsas hissəsini təşkil edən süzgəclər binası, ümumi tutumu 7500 kubmetr olan 3 su anbarı, 2 idarəetmə və 6 siyirtmə kamerası, inzibati və yardımçı binalar inşa edilib.

Sutka ərzində qurğuda emal olunacaq 140 min kubmetr suyun 100 min kubmetri Gəncə, 16 min kubmetri Şəmkir, 8 min kubmetri Samux şəhərinin, qalan hissəsi isə magistral kəmərlərin marşrutu boyu yerləşən kəndlərin tələbatının ödənilməsinə yönəldiləcək. Ümumilikdə, kompleksin imkanlarından istifadə olunmaqla perspektivdə 450 mindən artıq insan keyfiyyətli və fasiləsiz içməli su ilə təmin ediləcək.

Qeyd olundu ki, Şəmkirdə su layihələri tam başa çatıb, ilin sonunadək kanalizasiya xətlərinin inşası da yekunlaşacaq. Ağstafa, Göygöl və Goranboy, Tovuz şəhərləri də tamamilə layihələndirilib, Daşkəsən və Gədəbəydə şəbəkə işləri bitib, hazırda təmizləyici qurğuların inşası gedir.

Dövlət başçısı kompleksi işə saldı.

Sonra Prezident İlham Əliyev kompleksin kollektivi ilə görüşdü və çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

- Bu gün açılışını etdiyimiz “Şəmkirçay” Sutəmizləyici Qurğular Kompleksinin ərsəyə gəlməsində Şəmkirçay su anbarının müstəsna rolu vardır. Çünki əgər vaxtilə biz böyük vəsait sərf edərək bu nəhəng layihəni icra etməsəydik, bu gün bu bölgənin insanlarının su ilə təchizatı işində və suvarma işlərinin yüksək səviyyədə təşkilində böyük problemlər olardı. Çünki keçən il quraqlıq geniş vüsət aldı. Əfsuslar olsun ki, bu ilin proqnozları da o qədər ürəkaçan deyil. Ona görə bu böyük layihələrin həyata keçirilməsi bizi böyük problemlərdən sığortaladı.



Eyni zamanda Şəmkirçay su anbarı ilə bərabər, Taxtakörpü su anbarı da tikilib. Əgər Taxtakörpü su anbarı bir neçə il bundan əvvəl tikilməsəydi, keçən ilin yay aylarında Bakı şəhərində su qıtlığı yaranacaqdı. Çünki bizim əsas içməli su mənbəyimiz olan Ceyranbatan su anbarını qidalandıran Taxtakörpü su anbarıdır. Orada sular yığılır və eyni zamanda təbii yollarla təmizlənir, sonra Ceyranbatana axıdılır. Ona görə bu böyük infrastruktur layihələrinin çox böyük əhəmiyyəti, faydası var. Bu gün biz əkin sahələrimizi genişləndiririk, insanları içməli su ilə təmin edirik. Şəmkirçay su anbarından götürülən və burada təmizlənən su Gəncə, Samux və Şəmkir şəhərlərinin böyük hissəsini təmin edəcək. Bu gün Gəncə şəhərinin su təminatı əsasən Göygöl gölündən təmin edilir. Ancaq 2022-ci ildə Gəncə şəhərinin böyük su təchizatı layihəsi başa çatandan sonra bu şəhər Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun 24 saat fasiləsiz təmiz içməli su ilə məhz Şəmkirçay anbarından götürülən su ilə təmin ediləcək.

Bu layihələr bir daha onu göstərir ki, bizim bütün addımlarımız nəticəyə hesablanıb. Bütün addımlarımız vaxtında atılır. Hər iki böyük su anbarı Azərbaycanda tarixi layihələrdir. Çünki böyük əməktutumlu, maliyyətutumlu layihələrdir. Texniki cəhətdən çox mürəkkəb layihələrdir. Hər iki layihənin də təşəbbüskarı mən olmuşam, layihələrin icrası müddətində dəfələrlə bu işlərlə maraqlanmışam, müvafiq göstərişlər vermişəm, hər iki böyük layihənin açılışında iştirak etmişəm.

Biz bu gün insanları içməli su ilə təmin edirik və edəcəyik. Ölkəmizin əksər şəhərlərinin içməli su problemləri həll olunub, o cümlədən Şəmkir şəhərinin. Verilən məlumata görə, şəhərin kanalizasiya məsələsi də bu ilin sonuna qədər başa çatacaq. Samux şəhərinin də su problemi bu il həll olunacaq. Beləliklə, hələ də təmiz içməli su ilə təmin edilməyən şəhərlərin sayı təqribən 3-5 ətrafındadır. Onlar da maksimum iki il ərzində içməli su ilə təmin ediləcəklər.

Eyni zamanda müxtəlif qurumlarla kəndlərin su təminatı təşkil edilir - həm “Azərsu”, həm də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə təmizləyici qurğular hesabına. Bakı şəhərinin su problemləri həllini tapır. Mənə verilən məlumata görə, Bakı əhalisinin 80 faizi bu gün təmiz içməli su ilə davamlı təmin edilir. Bu proses hələ davam etdiriləcək. Ona görə bu layihələrin çox böyük tarixi əhəmiyyəti var. Su həyatdır, təmizlikdir, sağlamlıqdır, inkişafdır. Eyni zamanda kənd təsərrüfatının inkişafı üçün əsas rol oynayır.



Şəmkir maşın su kanalının ikinci növbəsi tamamlanır və bundan sonra təkcə Goranboy rayonunda bu günə qədər suvarılmayan 40 min hektar torpağa su veriləcək. Bu, özlüyündə yeni iş yerlərinin yaradılmasına gətirib çıxaracaq, insanlar daha yaxşı yaşayacaqlar, kənd təsərrüfatı inkişaf edəcək, məhsuldarlıq artacaq, ixrac imkanlarımız genişlənəcək. Bütün bunlar regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarında nəzərdə tutulan layihələrdir. Onların da hər biri uğurla icra edilir.

Şəmkir rayonunun inkişafı ilə bağlı müvafiq addımlar atılır. Mənim tərəfimdən bir çox göstərişlər verilmiş, sərəncamlar imzalanmışdır. Şəmkir rayonunun infrastruktur layihələri uğurla icra edilir, qazlaşdırma 98 faizdir. İçməli su məsələsi həll olunub. Yolların çəkilişi davam etdirilir. Bu gün mənə məruzə edilən yeni layihələr həyata keçiriləndən sonra əsaslı təmirli keyfiyyətli yolların faiz dərəcəsi təqribən 80-ə çatacaq. Bu gün hələ ki 40 faiz səviyyəsindədir. Ona görə hələ bir çox layihələr icra edilməlidir.

Bu yaxınlarda Mərkəzi Rayon Xəstəxanası açılmışdır. Çox gözəl, yeni binadır. Bütün lazımi avadanlıqla təchiz edilib, 190 çarpayılıq gözəl tibb müəssisəsidir. Digər sosial obyektlər inşa edilir, 37 məktəb tikilib və təmir edilib. Yəni biz buna kompleks şəklində yanaşırıq. O cümlədən iş yerlərinin yaradılması ilə bağlı addımlar atılır. Böyük aqroparklar salınıbdır. Minlərlə hektar torpağı əhatə edən bu aqroparklar Şəmkir rayonunun kənd təsərrüfatı və ixrac potensialını böyük dərəcədə gücləndirir. Təsadüfi deyil ki, Şəmkir rayonundan xarici ölkələrə ixrac 10 milyonlarla dollar həcmindədir və bu daha da artacaq. Potensial böyükdür, torpaq münbitdir, su var, insanlar zəhmətkeşdir, infrastruktur təmin edilir. İl yarımdan sonra Gürcüstan sərhədinə qədər dördzolaqlı yol çəkiləcək. Bundan sonra həm rayon, həm də ölkəmiz ancaq inkişaf yolu ilə gedəcək. Bu cür maliyyətutumlu sosial layihələrə çox böyük vəsait tələb olunur. Əlbəttə ki, aşağı səviyyədə olan su tarifləri ilə biz bu vəsaiti heç vaxt dövlətə qaytara bilməyəcəyik. Qarşıya belə məqsəd də qoyulmayıb. Məqsəd insanları təmiz su ilə təmin etməkdir ki, onlar sağlam olsunlar. Kənd təsərrüfatını da meliorativ tədbirlərlə dəstəkləməkdir. Biz bu məqsədə də çatırıq. Əminəm ki, həm rayon, həm ölkəmiz bundan sonra da uğurla inkişaf edəcək. “Azərsu” əməkdaşlarına isə gördükləri işlərə görə təşəkkürümü bildirirəm və yeni uğurlar arzulayıram.

❖ ❖ ❖

Sonda xatirə şəkli çəkdirildi.

# Qazaxda Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət



Martın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazax rayonunda səfərdə olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Qazax şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov rayonda görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verdi.

# Prezident İlham Əliyev Daş Salahlı-Ürkməzli-Dəmirçilər avtomobil yolunun açılışında iştirak edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Daş Salahlı-Ürkməzli-Dəmirçilər avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına yolun texniki-iqtisadi göstəriciləri barədə məlumat verdi.

Bildirildi ki, yolun uzunluğu 16 kilometrdir. İki hərəkət zolaqlı yolun tikintisi dövlət başçısının ötən ilin aprelində imzaladığı sərəncama əsasən həyata keçirilib və onun inşası üçün investisiya xərclərindən 6,8 milyon manat vəsait ayrılıb. Avtomobil yolunun tikintisi 3 yaşayış məntəqəsinin və orada yaşayan 13 mindən çox əhalinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında mühüm rol oynayacaq.

Qeyd edək ki, ölkəmizdə yol infrastrukturunun yenilənməsi və müasirləşdirilməsi istiqamətində aparılan işlərin ardıcıl və keyfiyyətlə davam etdirilməsi Azərbaycanın iqtisadi inkişafının göstəricilərindən biridir. Bu işlər eyni zamanda davamlı tərəqqinin əsas amillərindən hesab olunur. Son illərdə respublika əhəmiyyətli yolların müasir səviyyədə yenilənməsinə xüsusi diqqət göstərilir. Mühüm məqamlardan biri də odur ki, bu layihələr qısa müddətə və yüksək keyfiyyətlə icra olunur. Qazaxın Daş Salahlı-Ürkməzli-Dəmirçilər avtomobil yolunun əsaslı təmiri də bunu bir daha təsdiqləyir.

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunan dövlət proqramlarında bu sahəyə xüsusi yerin ayrılması dövlətin yeni yolların salınması məsələsinə nə qədər əhəmiyyət verdiyini aydın şəkildə göstərir. Çünki bu cür layihələrin icrası yolboyu yerləşən yaşayış məntəqələrinin sosial-iqtisadi tərəqqisinə böyük töhfə verir, turizmin, kənd təsərrüfatının inkişafında mühüm rol oynayır.

Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

# Qazaxda əhəng zavodu istifadəyə verilib







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Qazaxda əhəng zavodunun açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Qazax rayonunda yeni fəaliyyətə başlayan və "Mətanət A" şirkətinə məxsus "Azerlime" əhəng zavodu regionda yerləşən tikinti-quruculuq işlərində mühüm rol oynayacaq. Rayonun Daş Salahlı kəndində yaradılan bu müəssisə yeni iş yerlərinin açılması, əhalinin məşğulluğunun təmin edilməsi baxımından da xüsusi əhəmiyyətə malikdir.

"Mətanət A" şirkətinin rəhbəri Elxan Bəşirov dövlət başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, 2000-ci ildə əsası qoyulan şirkət inşaat materiallarının istehsalı sektorunda 20 ildir uğurla fəaliyyət göstərir. Şirkətin tərkibinə quru inşaat qarışıqları, gips əsaslı məhsulların buraxılışı, boya, beton qatqıları, avadanlıq və dəzgahların istehsalı, açar təhvili sahəsində ixtisaslaşmış zavodlar daxildir.

Prezident İlham Əliyevə şirkətin hazırda icra edilməkdə olan və perspektiv layihələri barədə məlumat verildi. Bildirildi ki, daş yunu zavodu və gips lövhə zavodu artıq icra olunma mərhələsindədir. Perspektiv layihələrdə isə illik istehsal gücü 300 min ton olan zənginləşdirilmiş kvars qum zavodunun və illik istehsal gücü 200 min kubmetr olan yüngül bloklar zavodunun tikilməsi nəzərdə tutulur. Bu zavodların yaradılmasına ümumilikdə 90 milyon manat investisiya qoyulacaq və dövlətin güzəştli kreditlərindən də istifadə olunacaq. Zavodların yaradılması nəticəsində 1000-ə yaxın daimi iş yeri açılacaq.

Dövlət başçısı "Azerlime" əhəng zavodunu işə saldı.

Prezident İlham Əliyev "Azerlime" əhəng zavodunda istehsal edilən məhsullara baxdı. Bu məhsullar müasir standartlara cavab verməklə yanaşı, həm də Azərbaycan brendi kimi ölkəmizin iqtisadi potensialını dünyaya nümayiş etdirəcək. Müəssisədə quraşdırılan müasir avadanlıqlar hesabına məhsullar yüksək keyfiyyəti ilə seçiləcək. Zavodda əsasən yerli xammaldan istifadə olunacaq. Hazırlanan məhsulların 60 faizi daxili bazarın tələbatının ödənilməsi, 40 faizi isə ixracat üçün nəzərdə tutulur. Bu zavodda istehsal olunan keyfiyyətli əhəng məhsulundan metallurgiya, qida, əczaçılıq, su təmizlənməsi, kənd təsərrüfatı, səhiyyə, kimya, plastik məmulat, şüşə və mədən sənayeləri kimi vacib sektorlarda istifadə edilir.

Zavodda istehsal olunan yeni növ "Azerlime" suvaq üçün əhəng məhsulu inşaat sektorunda inqilabi yenilikdir. Müəssisənin istehsal prosesində ekoloji təmiz məhsul əldə etməyə və enerjiyə qənaətə xüsusi diqqət yetirilir. Bu isə öz növbəsində məhsulun maya dəyərini aşağı salır.

Sonra Prezident İlham Əliyev rayon ictimaiyyətinin bir qrupu və zavodun kollektivi ilə görüşdü.

Dövlət başçısı görüşdə çıxış etdi.

# Prezident İlham Əliyevin çıxışı



- İlk növbədə sizi zavodun açılışı münasibətilə təbrik edirəm. Çox şadam ki, şirkətiniz yeni zavodun ərsəyə gəlməsində fəallıq göstərib və beləliklə, ölkəmiz, xalqımız üçün çox önəmli bir töhfə verib.

Artıq bir neçə zavod fəaliyyətdədir. Mənim də tövsiyəm o idi ki, bütün sərmayələr Azərbaycana qoyulsun, sizin başqa planlarınız var idi. Mən sizin fəaliyyətinizlə mütəmadi surətdə tanış oluram. Çünki yeni açılan sənaye müəssisələrinin hər biri çox önəmlidir, xüsusilə o müəssisələr ki, daxili tələbatı ödəyir və eyni zamanda ixracyönümlü məhsullar buraxır. Ona görə mən eşidəndə ki sizin xarici ölkələrə investisiya planlarınız var, dedim ki, buna etiraz etmirəm. Çünki indi Azərbaycanın həm özəl, həm dövlət şirkətləri xaricə də sərmayə qoyur. Ancaq ilk növbədə Azərbaycanda müəssisələrin yaradılması məqsədəuyğundur ki, iş yerləri açılsın, yerli istehsal inkişaf etsin, idxaldan asılılıq azalsın, ixracyönümlü məhsullar ortaya çıxsın və bu da ölkəmizə valyuta gətirsin. Bu gün mənə burada stendlərdə göstərilən təqdimatda görürəm ki, doğrudan da şirkətin fəaliyyəti çox genişmiqyaslıdır və yüzlərlə iş yerinin yaradılmasına gətirib çıxarıb, xüsusilə bölgələrdə. Təkcə bu yeni əhəng zavodunda 150, ondan sonrakı mərhələdə 250 nəfərin işlərə cəlb edilməsi nəzərdə tutulur və beləliklə, vətəndaşları işlə təmin etmək üçün yaxşı imkanlar var.

O ki qaldı sizin gələcək planlarınıza, əminəm ki, dövlətin dəstəyi ilə bu planlar həyata keçəcək. Çünki bu zavodların və sizin səmərəli fəaliyyətiniz üçün dövlət öz tərəfindən maliyyə dəstəyi göstərib, güzəştli şərtlərlə kreditlər ayırıb. Amma, əlbəttə ki, əsas yükü siz öz üzərinizə götürmüsünüz və bu da təbiidir. Dövlət isə hər zaman sahibkarların yanında olacaq, sahibkarlığın inkişafına bundan sonra da böyük təkan verəcək.

Bu gün ölkəmizdə sərmayə iqlimi çox müsbətdir. Təsadüfi deyil ki, keçən il ölkə iqtisadiyyatına 13,5 milyard dollar sərmayə qoyulub. Bu il də bu proses davam etdirilir və sərmayənin böyük hissəsi yerli sərmayədir. Bu onu göstərir ki, yerli şirkətlər artıq ayaqda möhkəm dayana bilir və dövlətin dəstəyi ilə bu işlər davam etdiriləcək. Təkcə Sahibkarlığın İnkişafı Fondunun xətti ilə sahibkarlara 2 milyard manat məbləğində güzəştli kreditlər verilib və bu kreditlərin hesabına on minlərlə yeni iş yeri yaradılmışdır.

Bizim investisiya iqlimimizin müsbət olmasını Dünya Bankı da qeyd edir və biz bu reytinqlərdə 20 ən islahatçı ölkə sırasındayıq. Əlbəttə ki, buna nail olmaq üçün çox düşünülmüş siyasət aparılmalıdır. Əminəm ki, təkcə Dünya Bankı yox, eyni zamanda yerli sahibkarlar da aparılan islahatları görürlər və bəyənirlər. Çünki sahibkarlar üçün əsas məsələ düzgün qaydaların tətbiq edilməsidir. Bu istiqamətdə dövlət siyasəti birmənalıdır, bütün sahələrdə, o cümlədən maliyyə və iqtisadi sahədə tam şəffaflıq təmin edilməlidir. Bu şəffaflıq hesabına təkcə keçən il vergi və gömrük orqanları proqnozdan əlavə büdcəyə 1 milyard manat daxil ediblər.

Baxmayaraq ki, bu ilin büdcəsi rekord həddə çatıb, Azərbaycan tarixində bu ölçüdə, bu böyüklükdə büdcə xərcləri olmayıb. Büdcə hazırlanarkən çox geniş təhlil işləri aparılıb ki, proqnozlar nədən ibarət olacaq. Proqnozlar keçən ilə görə artırılıb. Buna baxmayaraq, yanvar-fevral aylarında vergi orqanları büdcəyə proqnozdan əlavə 180, gömrük orqanları isə 70 milyon manat vəsait daxil ediblər. Bütövlükdə, 250 milyon manat, cəmi iki ay ərzində. Nəyin hesabına? Şəffaflıq, dürüstlük, təmizlik və vergi bazasının genişləndirilməsi hesabına. Ona görə sahibkarlar da bu işlərə tam dəstək verərək, həm öz maliyyə imkanlarını genişləndirəcəklər, onlarda əlavə vəsait toplanacaq. Bu vəsaiti də ilk növbədə Azərbaycana yatırmaq lazımdır. Eyni zamanda bu müsbət tendensiyalar kölgə iqtisadiyyatına da böyük zərbədir. Kölgə iqtisadiyyatının həcmi kəskin daralır, daha da daralmalıdır və proqnozdan əlavə yığılan vəsait bunun bariz nümunəsidir.

Qeyri-rəsmi məşğulluq olmamalıdır. Əminəm ki, sizin müəssisədə bu yoxdur. Bütün işçilərlə əmək müqavilələri bağlanmalıdır. Yenə də bütün işçilərə üz tutub deyirəm ki, əgər hansısa sahibkar sizi qanunsuz işə cəlb etmək istəyirsə, buna razı olmayın. Çünki siz pensiya almayacaqsınız və icbari tibbi sığorta ilə təmin olunmayacaqsınız. İcbari tibbi sığorta isə bu ildən başlayaraq mərhələli şəkildə ölkəmizi tam əhatə edəcək. Ancaq qeyri-rəsmi işləyən hər bir vətəndaş bundan məhrum olacaq və gedib tibbi xidməti almaq üçün pul verməli olacaq. İcbari tibbi sığorta artıq pulvermə praktikasına da tamamilə son qoyacaq. Çünki əfsuslar olsun ki, bu gün bizim hələ də bu sahədə ciddi problemlərimiz var, pozuntular var. İcbari tibbi sığorta bunun qarşısını alacaq. Eyni zamanda qeyri-formal məşğulluğa qarşı da ciddi mübarizə üsulu olacaq.

Bu gün bu zavodun açılışı bir daha onu göstərir ki, ölkəmizdə düzgün iqtisadi siyasət aparılır. Biz sahibkarlıqla bağlı görülən tədbirlərin real nəticəsini görürük. Çünki bizim iqtisadiyyatımız özəl sektor hesabına inkişaf etməlidir. Dövlət sadəcə olaraq şərait yaratmalıdır, infrastruktur layihələri həyata keçirməlidir ki, sahibkarlar da bu işlə həvəslə məşğul olsunlar.

Qazax rayonunda elektrik enerjisi ilə bağlı problem yoxdur, 100 faiz təmin olunub. Qazlaşdırma ilə bağlı da problem yoxdur. Qazax rayonu qazla 100 faiz təmin edilib. Bu gün Qazaxda yolların 85 faizi təmirlidir. Əgər bu sahələrdə problem olsaydı, heç bir sahibkar buraya gəlib pul qoymazdı, o cümlədən də siz.

*Ardı 6-cı səh.*

# Qazaxda əhəng zavodu istifadəyə verilib

Əvvəli 5-ci səh.

Başqa yer tapardınız, gedərdiniz başqa ölkələrə, harada ki, bu infrastruktur var. Ona görə bunu biz yaratmışıq ki, insanlar yaxşı, rahat yaşasınlar və sahibkarlar vəsait qoysunlar. İcra başçısı mənə deyir ki, Daş Salahlı kəndində üç böyük müəssisə var. Bu müəssisələrdə 1300 adam işləyir. Kəndin əhalisinin sayı 10 mindir, 1300-ü burada işləyir. Bax, budur bizim gördüyümüz işlər və sahibkarların gördüyü işlər. Ona görə sahibkarlara mərkəzi dövlət orqanları, yerli icra orqanları daim dəstək göstərməlidirlər. Onların problemləri həll olunmalıdır. Mənə indi məlumat verilir ki, biz yeni yol çəkmişik, amma bu yük maşınları o yolu dağıda bilər. Yük maşınları üçün alternativ yol çəkilməlidir. İndi mən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə tapşırıq verəcəyəm, məni eşidirlər. İki kilometr uzunluğunda yeni yolun çəkilişi təmin edilməlidir ki, kənd yolu belə normal qalsın və deformasiyaya uğramasın.

Sizi bir daha təbrik edirəm, sizə yeni uğurlar arzulayıram. Belə müəssisələri yaradın ki, mən gəlim sizinlə birlikdə bunların açılışında iştirak edim.

❖ ❖ ❖

**“Azerlime” əhəng zavodunun icraçı direktoru Fuad BƏŞİROV** dedi:

-Təşəkkür edirəm, cənab Prezident. Qazax rayonuna və zavodumuza xoş gəlmisiniz. İcazə verin, kənd camaatı adından və kollektivimiz adından Sizə səmimi salamlarımızı çatdıraq. Bu, çox sevindirici bir haldır ki, artıq üçüncü dəfədir Siz Daş Salahlı kəndində böyük bir müəssisənin açılışında iştirak edirsiniz. Bu gün ölkəmizin bütün regionlarının, bölgələrinin siması dəyişir. Bunu hər birimiz öz gündəlik güzəranımızda da hiss edirik.




Cənab Prezident, bu gün təkcə şəhər mərkəzlərində, rayon mərkəzlərində deyil, hətta ucqar kəndlərdə belə hər bir problem Sizin diqqət mərkəzinizdədir və daim nəzarətinizdədir. Təsadüfi deyil ki, düşmənlə üz-üzə olan bir yerdə, dağ kəndi olan Daş Salahlıda belə bir açılışı biz həyata keçiririk. Onu da qeyd edim ki, bu zavoda 15 milyon dollar sərmayə qoyulub. Bunun 9 milyonu dövlətimizin dəstəyi hesabına başa gəlib. Eyni zamanda İqtisadiyyat Nazirliyinin dəstəyi ilə də biz bu layihə üçün təşviq sənədi almışıq. Bu gün 250 iş yerinin açılmasını nəzərdə tuturuq. Orta aylıq əməkhaqqı da 500 manat olacaq. Mütəxəssislər arasında isə 1000 manat, 800 manat əməkhaqqı alanlar da var. Bu işçilərin əksəriyyəti Daş Salahlı kəndindəndir. Burada maraqlı bir məqam var, bu gün elə ailələr var ki, Daş Salahlı kəndində hər iki valideyn müasir zavodda işləyir, övladını da bağçaya qoymaq imkanı yaranıb. Bu, nədən irəli gəlir? Bu, yüksək infrastrukturun, müasir bağça və məktəblərin yaradılmasından irəli gəlir. Bu, eyni zamanda, bir mədəni inqilabdır. Bu gün artıq mədəni yanaşma da dəyişir. Bütün bunlar Sizin gecə-gündüz bilmədən böyük əzmlə hər bir vətəndaşınızı düşünməyinizin nəticəsidir.

Bir məsələni də qeyd edim ki, bu gün bu zavodun tikilməsində biz Almaniya, İsveçrə mütəxəssislərinin biliklərindən də istifadə etmişik. Ancaq bu gün əminliklə deyə bilərik ki, o mütəxəssislər gedib, onların dəstəyi olmadan yetişən yerli kadrlar bu işi öz gücləri ilə həyata keçirirlər. Bundan əlavə, onların da əksəriyyətini gənclər təşkil edir. Mən özüm dövlətimizin dəstəyi ilə Almaniyada və İngiltərədə təhsil almışam. İqtisad üzrə fəlsəfə doktoruyam və bu gün idarəetmədə iştirak edirəm. Mən tək nümunə deyiləm. Mənim kimi bu gün bu müəssisədə fəhləlikdən başlayıb mütəxəssis səviyyəsinə qalxan çoxsaylı insanlar var. Ona görə gənclərlə bağlı dövlət siyasətinə və gənclərə göstərilən bu qayğıya görə Sizə dərin minnətdarlığımızı bildiririk. Bir daha bütün kollektivin adından Sizə cansağlığı və təşəkkürümüzü bildiririk. Sizi əmin edirik ki, öz uğurlarımızla Sizin siyasətinizə dəstək verəcəyik və etimadınızı doğruldacağıq. Allah Sizi qorusun, çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Çox sağ ol. Sizə də cansağlığı arzulayıram.

❖ ❖ ❖

Sonda xatirə şəkli çəkdirildi.

# Qazax Rayon Mərkəzi Xəstəxanasının açılışı olub







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Qazax Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı xəstəxananın rəmzi açılışını bildirən lenti kəsdi.

Səhiyyə islahatlarının mühüm istiqaməti olan tibb müəssisələri şəbəkəsinin və strukturunun təkmilləşdirilməsi sahəsində son illərdə görülən işlər göz qabağındadır. Əhalinin sağlamlığının qorunmasında və tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılmasında səhiyyənin prioritet sahələri üzrə qəbul olunan Dövlət proqramları müstəsna rol oynayıb. Bu proqramlar dövlət tərəfindən maliyyələşdirilib və ölkə üzrə bütün tibb müəssisələrinin yenidən qurulmasını əhatə edib. Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşdırılan sosialyönümlü siyasətin mühüm tərkib hissəsi kimi ölkədəki tibb ocaqlarında xidmətin pulsuz həyata keçirilməsi, əhalinin icbari tibbi sığortasının təşkil olunması və icrası uğurla davam edir. Ölkədəki səhiyyə islahatlarının əsas qayəsi həm də aztəminatlı və ağır xəstəliklərdən əziyyət çəkən insanların pulsuz dərmanlarla təmin olunmasına və müalicəsinə yönəlib.

Dövlət başçısına məlumat verildi ki, Qazax Rayon Mərkəzi Xəstəxanasının binası 1969-cu ildə yataqxana kimi istifadəyə verilmişdi və uzun illər təmir işlərinin aparılmaması səbəbindən bina yararsız vəziyyətə düşmüşdü. Yeni xəstəxana binası üçün 2013-cü ildən başlayan tikinti işləri ötən ilin sentyabrında yekunlaşıb. Üç hektarlıq ərazidə 145 çarpayılıq müasir tibb müəssisəsi inşa olunub. Xaricdə istehsal olunan avadanlıqlarla təchiz edilən xəstəxana binasının ümumi sahəsi 22 min kvadratmetrdir. Burada doğum, terapiya, cərrahiyyə, uşaq xəstəlikləri, anesteziologiya-reanimasiya, poliklinika, şüa-diaqnostika, hemodializ və digər şöbələr fəaliyyət göstərəcək. Xəstəxana binasında qəbul, laboratoriya, təcili tibbi yardım şöbələri və Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi ilə yanaşı, yoluxucu xəstəliklər korpusu, Gigiyena və Epidemiologiya Mərkəzi də fəaliyyət göstərəcək.

Prezident İlham Əliyevə icbari tibbi sığortanın tətbiqi ilə bağlı dövlət xəstəxanalarında tibbi fəaliyyətin təşkilindəki əsas dəyişikliklər barədə məlumat verildi. Bildirildi ki, təcili və təxirəsalınmaz tibbi yardım bölməsi həftənin 7 günü 24 saat fəaliyyət göstərərək müraciət edən xəstələrin çeşidlənməsini, stasionar şöbələrə yerləşdirilməmişdən əvvəl həkim nəzarəti altında müayinə və müalicələrinin həyata keçirilməsini təmin edir. Xəstələr bu bölmənin fəaliyyəti nəticəsində müşahidə altında saxlanılır, hər şey qaydasında olarsa, ambulator müalicə üçün evə yazılır, nəticədə stasionar şöbələrə düşən yükün həcmi kəskin azalır. Steril şəraitin təmin edilməsi üçün laboratoriya şöbələri xəstələrin birbaşa daxil ola biləcəyi ərazilərdən kənarda yerləşdirilib, qan və digər nümunələrin alınması üçün xüsusi otaqlar yaradılıb, zəruri avadanlıqlarla təmin edilib. Ambulator tibbi xidmətin göstərilməsi üçün xəstəxana binalarının birinci mərtəbələrində poliklinikalar yaradılıb. Bütün həkimlər ambulator xəstə qəbulunu poliklinikalarda həyata keçirirlər.

# Prezident İlham Əliyev “Azərxalça” ASC-nin Qazax filialının fəaliyyəti ilə tanış olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin Qazax filialının fəaliyyəti ilə tanış olub.






AZƏRTAC xəbər verir ki, “Azərxalça” ASC-nin İdarə Heyətinin sədri Vidadi Muradov dövlət başçısına müəssisədə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 1200 kvadratmetrdən çox olan filialın binasında 150 toxucu işləyəcək və onların hamısı yerli sakinlərdir. Onlar bir neçə ay ərzində “Azərxalça”nın burada təşkil olunmuş tədris-hazırlıq kurslarında iştirak edib, bacarıq və vərdişlərini təkmilləşdiriblər. Tədris-hazırlıq kursu filial fəaliyyətə başladıqdan sonra da öz işini davam etdirəcək və bu kursun məzunları “Azərxalça” ASC-nin sertifikatını alacaqlar.

Bina toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, xalça-satış salonu və digər bölmələrdən ibarətdir. Emalatxanada müxtəlif ölçülü 40-dan çox dəzgahda Azərbaycan xalçaları toxunacaq. Emalatxana zəruri xammal və ləvazimatlarla təmin edilib. Xalça-satış salonunda “Azərxalça” ASC-də toxunmuş xalça və xalça məmulatlarının sərgilənməsi və satışı həyata keçiriləcək.

Qeyd edək ki, qədim el sənətlərindən olan xalçaçılığın inkişafı ilə bağlı Qazax rayonunda icra olunan layihə də öz əhəmiyyəti ilə fərqlənir. Bu sahənin inkişafına xüsusi önəm verən Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində artıq bir çox bölgələrdə xalça fabrikləri istifadəyə verilib və bəzi regionlarda yeni fabriklərin açılması istiqamətində işlər gedir. Hazırda dövlət səviyyəsində bu fabriklərin yerli istehsal hesabına xammalla təmin olunması diqqət mərkəzindədir. Prezident İlham Əliyev həmişə vurğulayır ki, bu fabriklərin açılması xüsusilə qadınların işlə təmin olunmasında müstəsna əhəmiyyətə malikdir. Bu baxımdan Qazaxdakı Xalça Fabriki də fərqlənir. Müəssisədə əsasən Ağstafa, Qazax və Tovuz rayonlarının yaşayış məntəqələrindəki orijinal xalça çeşnilərinin toxunmasına üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim xalçalar əsasında “Azərxalça”nın rəssamları tərəfindən hazırlanıb.

# Prezident İlham ƏLİYEV: "Biz 20-yə yaxın ən islahatçı ölkə arasında yer almışıq"

Əvvəli 1-ci səh.

Ötən il bu 15 faizə yaxın olub. Bu ilin yanvarında rəqəmlər təxminən eynidir. Beləliklə, bu, onu göstərir ki, infrastruktur layihələri, eləcə də, sahibkarlığa olan dövlət dəstəyi çox müsbət investisiya mühiti yaradıb. Siz "Doing Business" hesabatından bizim islahatlarımız barədə bilirsiniz. Biz 20-yə yaxın ən islahatçı ölkə arasında yer almışıq. Lakin yenə də çox iş görülməlidir.

Ona görə də mən düşünürəm ki, qarşıdan gələn dövrdə, - biz 2020-ni yaxşı nəticələrlə başlayırıq, - əvvəllər olduğu kimi yenə də Avropa Yenidənqurma və İnkişaf Bankından eyni dəstəyi almaq üçün qısa və uzunmüddətli addımlarımızı və strategiyamızı müvafiq şəkildə planlaşdırmalıyıq. Əminəm ki, sizin bütün əlaqələriniz bizə bu məqsədə çatmağa imkan verəcək. Bir daha xoş gəlmisiniz.

❖ ❖ ❖

Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti **Yurgen Riqterink** təmsil etdiyi bankla Azərbaycan arasında uzun illərdir mövcud olan münasibətlərdən razılığını ifadə etdi. İndiyə kimi Bankın ölkəmizə 3,3 milyard dollardan çox investisiya yatırdığını bildirən Yurgen Riqterink hazırda 1,1 milyard dollar dəyərində investisiya portfelinin olduğunu da söylədi.

Avropa Yenidənqurma və İnkişaf Bankının icraçı direktoru ilə birlikdə Davosda Prezident İlham Əliyev ilə görüşünü xatırlayan qonaq Azərbaycan dövləti başçısının iqlim dəyişikliyi məsələləri və ölkədə xarici borcun azalması ilə bağlı görülən işlər barədə söylədiklərinin maraq doğurduğunu vurğuladı. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda aparılan iqtisadi islahatları yüksək qiymətləndirən Yurgen Riqterink ölkəmizdə həyata keçiriləcək birgə layihələrin icrası və əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi.

Söhbət zamanı bərpa olunan enerji, nəqliyyat, özəl sektorun inkişafı, meliorasiya və su təchizatı və digər sahələrdə əməkdaşlığın konkret istiqamətləri ilə bağlı müzakirələrin aparılmasının zəruriliyi qeyd edildi.

Görüşdə Azərbaycan ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında əməkdaşlığın genişləndirilməsi və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Tərəfdaşlıq münasibətləri qədim tarixə malikdir

Əvvəli 1-ci səh.

Mən humanitar əməkdaşlıq mövzusunu ayrıca qeyd etmək istərdim. Bizim ali məktəblər arasında əməkdaşlıq haqqında bu gün də müqavilələr var. Bilirəm ki, bizim Rostov Dövlət Texniki Universitetinin, Cənub Federal Universitetinin və bir sıra başqa ali məktəblərin konkret əlaqələri reallaşıb. Çox xoşagələn haldır ki, bu tərəfdaşlıq münasibətləri qədim tarixə malikdir.

❖ ❖ ❖

Rostov vilayətinin qubernatoru Vasili Qolubev Prezident İlham Əliyevə videoyazı olan xatirə albomunu təqdim etdi.

Videoalbom 1980-ci ildə o vaxt Azərbaycana rəhbərlik edən Ulu Öndər Heydər Əliyevin Rostov vilayətinə səfərinə həsr olunub. Səfər zamanı Ulu Öndər Böyük Vətən müharibəsi illərində misilsiz şücaət göstərmiş Azərbaycan əsgərlərinin qəhrəmanlığına həsr edilən və Rostov vilayətinin azad olunmasının rəmzi olan "Sambek yüksəklikləri" xatirə abidəsinin açılışında iştirak edib. O zaman alman faşistləri ilə döyüşlərdə böyük hünərlə vuruşan həmvətənlərimizdən ibarət 130-cu və 416-cı atıcı diviziyalar "Taqanroq" fəxri adına layiq görülmüşdü.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV** dedi:

- Bizim ortaq tariximizi xatırlatdığınıza görə çox təşəkkür edirəm. Əlbəttə, 40 il bundan əvvəl Heydər Əlirza oğlu Əliyev Rostov vilayətində bu memorialın açılışında iştirak edib. Bu tarix bizə çox əzizdir. Sağ olun ki, bu xatirəni qoruyursunuz. Riqqət hissi doğuran belə videoçarxa görə sağ olun. Əlbəttə, bu il bizim ümumi Qələbəmizin böyük bayram ilidir. Azərbaycanda Böyük Vətən müharibəsi veteranları dövlət tərəfindən həm mənəvi, həm də maddi baxımdan dəstəklənirlər. Biz onların fədakarlığını, qəhrəmanlığını həmişə xatırlayırıq. Mən hər il mayın 9-nu adətən Bakıda veteranlarla birgə keçirirəm. Lakin bu il Vladimir Vladimiroviç Putindən dəvət almışam və mayın 9-da Moskvada olmağı planlaşdırıram. Onu da demək istəyirəm ki, bizim ümumi Qələbəmiz şərəfinə Azərbaycan Ordusunun zabitləri Qızıl Meydanda paradda iştirak edəcəklər.



Fürsətdən istifadə edib onu da demək istərdim ki, bu məsələ barədə Rusiyanın və Azərbaycanın mövqeləri tamamilə eynidir. Böyük Vətən müharibəsi haqqında həqiqətin təhrif edilməsi, tarixi yenidən yazmaq, faşizmi və faşistləri qəhrəmanlaşdırmaq cəhdlərinə qarşı biz də qətiyyətlə mübarizə aparırıq. Buna görə də, bu məsələdə bizim mövqelərimiz tamamilə üst-üstə düşür. Bu mövqelər həm tarixi həqiqətə, ədalətə, həm də ona əsaslanır ki, gələcək nəsillər kimin təcavüzkar, kimin təcavüz qurbanı olmasına, kimin qalib gəlməsinə və bu Qələbənin nəyin bahasına qazanılmasına heç vaxt şübhə etməsinlər.

Biz həlak olmuş bütün sovet vətəndaşlarının xatirəsini, əlbəttə, bizim nümayəndələrin də xatirəsini Azərbaycanda ehtiramla yad edirik. Müharibədə Azərbaycandan iştirak edənlərin yarısı, 300 min nəfərdən çoxu həlak olub. Müharibə illərində sovet ordusunun sürtkü yağlarına tələbatının 90 faizini, benzinin və tanklar üçün yanacağın 80 faizini Azərbaycan təmin edirdi. Bu, bizim ümumi Qələbəmizdə mühüm rol oynayıb. Bizim zavodlarda zəruri silahlar, o cümlədən məşhur "Katyuşa" raketləri istehsal edilirdi. Ona görə də, biz həmin günü ehtiramla yad edirik və bu xatirə hədiyyəsinə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Sağ olun.

## Ağstafa, Gədəbəy, Şəmkir və Tovuz rayonlarında yaşayış məntəqələrinin qazlaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ağstafa, Gədəbəy, Şəmkir və Tovuz rayonlarında ərazi vahidlərinin, o cümlədən yeni yaşayış massivlərinin (siyahı əlavə olunur) qazlaşdırılması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.11.1-ci yarımbəndində göstərilmiş məbləğin 8,19 milyon (səkkiz milyon bir yüz doxsan min) manatı Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2020-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 3 mart tarixli Sərəncamı ilə təsdiq edilmişdir

### Ağstafa, Gədəbəy, Şəmkir və Tovuz rayonlarında 2020-ci ildə qazlaşdırılması nəzərdə tutulan ərazi vahidlərinin siyahısı

| Sıra №-si | Ərazi vahidləri |
|---|---|
| | **Ağstafa rayonu** |
| 1. | Dağ Kəsəmən kəndində yeni massiv |
| | **Gədəbəy rayonu** |
| 1. | Arıqıran kəndi |
| 2. | Gərgər kəndi |
| 3. | Qasımlı kəndi |
| | **Şəmkir** |
| 1. | Aşağı Çaykənd kəndi |
| 2. | Şəmkir şəhərində 2 yeni massiv |
| | **Tovuz rayonu** |
| 1. | Cirdək kəndi |
| 2. | Çatax kəndi |

## Şəmkir rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şəmkir rayonunun əhalisi 75563 nəfər olan 15 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 18 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə Azərbaycanın rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının qazılması üçün göstərilmiş vəsaitin 1,26 milyon (bir milyon iki yüz altmış min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2020-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 3 mart tarixli Sərəncamına Əlavə

### Şəmkir rayonunda qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Yaşayış məntəqələri | Quyuların sayı, ədəd | Əhalinin sayı, nəfər |
|---|---|---|---|
| 1. | Ağlavaşlı kəndi | 1 | 2257 |
| 2. | Aşağı Seyfəli kəndi | 1 | 7256 |
| 3. | Dəllər Cəyir kəndi | 1 | 6048 |
| 4. | Düyərli kəndi | 2 | 9146 |
| 5. | Düzqışlaq kəndi | 1 | 2417 |
| 6. | Əliyaqublu kəndi | 2 | 2627 |
| 7. | İrmaşlı kəndi | 1 | 5128 |
| 8. | Könüllü kəndi | 1 | 4983 |
| 9. | Sabirkənd kəndi | 1 | 5804 |
| 10. | Sarıtəpə kəndi | 2 | 2256 |
| 11. | Şiştəpə kəndi | 1 | 6451 |
| 12. | Təzəkənd kəndi | 1 | 6319 |
| 13. | Yeniabad kəndi | 1 | 2060 |
| 14. | Yuxarı Seyfəli kəndi | 1 | 4214 |
| 15. | Zəyəm qəsəbəsi | 1 | 8597 |
| **Cəmi** | | **18** | **75 563** |

## Goranboy rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Goranboy rayonunun əhalisi 70278 nəfər olan 31 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 43 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulmuş vəsaitin bölgüsü"nün 1.8.12-ci yarımbəndində göstərilmiş 3,0 (üç) milyon manat Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2020-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 3 mart tarixli Sərəncamına Əlavə

### Goranboy rayonunda qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Yaşayış məntəqələri | Quyuların sayı, ədəd | Əhalinin sayı, nəfər |
|---|---|---|---|
| 1. | Azad kəndi | 1 | 551 |
| 2. | Borsunlu kəndi | 1 | 4530 |
| 3. | Dəliməmmədli şəhəri | 1 | 6124 |
| 4. | Dəyirmanlar kəndi | 1 | 519 |
| 5. | Düzqışlaq kəndi | 1 | 2918 |
| 6. | Əlirzalı kəndi | 1 | 1239 |
| 7. | Fəxralı kəndi | 2 | 2935 |
| 8. | Goranboy şəhəri | 2 | 10297 |
| 9. | Hacallı kəndi | 1 | 392 |
| 10. | Həmənli kəndi | 1 | 214 |
| 11. | Xan Qərvənd kəndi | 1 | 4422 |
| 12. | Kələk kəndi | 1 | 909 |
| 13. | Qaradağlı kəndi | 1 | 3676 |
| 14. | Qaramusalı kəndi | 1 | 1168 |
| 15. | Qarapirimli kəndi | 2 | 290 |
| 16. | Qarasuçu kəndi | 1 | 509 |
| 17. | Qarqucaq kəndi | 1 | 820 |
| 18. | Qızılhacılı qəsəbəsi | 2 | 7090 |
| 19. | Qurbanzadə kəndi | 2 | 635 |
| 20. | Muzdurlar kəndi | 2 | 1586 |
| 21. | Nadirkənd kəndi | 1 | 1686 |
| 22. | Nərimanlı kəndi | 1 | 1093 |
| 23. | Nizami kəndi | 1 | 1767 |
| 24. | Rəhimli kəndi | 1 | 1166 |
| 25. | Səfikürd kəndi | 2 | 4698 |
| 26. | Səmədabad kəndi | 3 | 1431 |
| 27. | Şıxlar kəndi | 1 | 280 |
| 28. | Tap Qaraqoyunlu kəndi | 1 | 2681 |
| 29. | Tatarlı kəndi | 2 | 2186 |
| 30. | Təklə kəndi | 1 | 536 |
| 31. | Veyisli kəndi | 3 | 1930 |
| **Cəmi** | | **43** | **70 278** |

# Azərbaycan-Türkiyə: bənzərsiz qardaşlıq nümunəsi

Əvvəli 1-ci səh.

Lakin Azərbaycan-Türkiyə münasibətlərinin müasir dünya müstəvisində bənzəri yoxdur. Bu baxımdan iki ölkənin əlaqələrindəki sıx bağlılıqlara, onların dərinliyinə və tarixin bətnindən sızan mənəvi köklərinə bugünkü münasibətlərin prizmasından nəzər salmağa dəyər.

Prezident İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclasında necə salamlamasına fikir verin: "Azərbaycana, doğma vətəninizə xoş gəlmisiniz". Dünya diplomatiyası tarixində heç bir dövlət başçısı digərini belə bir ifadə ilə qarşılamamışdır. Bu, diplomatik protokoldan uca olan siyasi jestdir. Bu ifadə yalnız Azərbaycan Prezidentinin yox, həm də bütün Azərbaycan xalqının qəlbindən gələn səmimi ifadədir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə öz növbəsində öncə münaqişə bölməsində şəhid olan Azərbaycan əsgərini ehtiramla yad etdi: "Dünən şəhid olan azərbaycanlı qardaşımıza - İbrahim qardaşımıza Allahdan rəhmət diləyirəm. Bundan qısa müddət əvvəl bir qardaşımız da şəhid olub, ona da Allahdan rəhmət diləyirəm. Bütün Azərbaycan xalqına da şəxsən öz adımdan, nümayəndə heyəti və bütün xalqım adından başsağlığı diləklərimi də burada ifadə etmək istəyirəm".

Azərbaycan müasir dünya düzənində ən gənc ölkələrdən biri sayılsa da, artıq zəngin diplomatik təcrübəyə malik olan, çoxsaylı beynəlxalq tədbirlərə evsahibliyi edən ölkə kimi Ərdoğanı fərqli qaydada qarşılamaqla qardaşlığımızın əbədiliyini əməldə təsdiq etdi. Strateji Əməkdaşlıq Şurasının VIII iclası başa çatdıqdan sonra iki dövlət başçısının iştirakı ilə Azərbaycan və Türkiyə arasında çoxsaylı sənədlər imzalandı və ardınca hər iki dövlət başçısı bəyanatla çıxış etdilər.

Prezident İlham Əliyev bəyanatında Türkiyə-Azərbaycan əlaqələrinin ən yüksək zirvədə olduğunu, siyasi əlaqələrin iki xalqın iradəsini əks etdirdiyini, bütün beynəlxalq təşkilatlar çərçivəsində vahid mövqedən çıxış etdiklərini, bir-birlərinə arxa, dayaq olduqlarını bildirdi: "Bütün beynəlxalq arenalarda Türkiyə hər zaman Azərbaycanın, Azərbaycan xalqının yanındadır. Ancaq Ermənistanın qeyri-konstruktiv mövqeyi münaqişənin həlli üçün əsas maneədir. Ermənistan rəhbərliyinin çox ziddiyyətli və bir-birini inkar edən bəyanatları danışıqlar prosesinə böyük zərbədir. Onlar gah deyirlər ki, Dağlıq Qarabağ Ermənistandır, gah deyirlər ki, Dağlıq Qarabağ müstəqil dövlətdir. Belə çıxır ki, onlar özləri də bilmirlər Dağlıq Qarabağ nədir? Bilmirlərsə, biz deyə bilərik: Dağlıq Qarabağ Azərbaycandır. Bunu biz deyirik, bunu bütün dünya deyir". İqtisadi əlaqələrə gəldikdə dövlətimizin başçısı hazırda Azərbaycanda 4 minə yaxın Türkiyə şirkətinin fəaliyyət göstərdiyini, onların birlikdə 300-dən çox layihədə 16 milyard dollar həcmində iş gördüyünü və bu məsələdə Türkiyənin birinci yerdə olduğunu, həmçinin Azərbaycanın Türkiyə iqtisadiyyatına 18 milyard, Türkiyənin isə Azərbaycan iqtisadiyyatına 12,5 milyard dollar sərmayə yatırdığını qeyd etdi.

Müdafiə, nəqliyyat sahəsində iş birlikləri qurulur və davam edir. Artıq Bakı-Tbilisi-Qars dəmir yolu uğurla fəaliyyət göstərir. Qars-Naxçıvan dəmir yolunun tikintisinə dair Anlaşma Memorandumu imzalanıb ki, bu da Ermənistanın işğalçı siyasətinə iki dövlətin birlikdə vurduğu ağır zərbədir. Belə ki, uzun illər mühasirə şəraitində yaşayan Naxçıvanda istehsal olunan məhsulların xarici bazarlara çıxarılması böyük problem idi. Qars-İğdır-Naxçıvan dəmir yolunun tikintisi isə bu problemi aradan qaldıracaq, Naxçıvandan Türkiyəyə ixrac ediləcək malların çeşidi və həcmi artacaq.

Rəcəb Tayyib Ərdoğan bəyanatında Türkiyə ilə Azərbaycan arasında siyasi, hərbi, iqtisadi, ticari, mədəni sahələrdə həmişə həmrəylik nümayiş etdirdiklərini diqqətə çatdırdı və etiraf etdi ki, Prezident İlham Əliyevin uzaqgörən siyasətinin bölgəmizə rifah, sabitlik və sülh gətirməsi göz önündədir: "Düşünürəm ki, 20 il əvvəlki Azərbaycan ilə bugünkü Azərbaycanı müqayisə etmək mümkün deyil. Bu gün tamamilə başqa bir Azərbaycan göz önündədir. İnfrastrukturu, quruculuğu ilə daim inkişaf edən, dəyişən bir Azərbaycan var".

Türkiyə Prezidenti bəyanatında ən vacib məqamlardan birini daha çox qabartdı: "Dörd bir tərəfimizdə münaqişələr, terror və asayiş problemləri yaşandığı bir vaxtda Türkiyə və Azərbaycan bir sabitlik abidəsi olaraq yüksəlirlər. Şübhəsiz ki, buna görə sarsılmaz əlaqələrimiz qədər, güclü ordularımıza da borcluyuq. Bu mənada istər ordularımızın həmrəyliyi, istərsə müdafiə sənayesi sahəsində atdığımız addımlar gələcəkdə müstəqilliyimizin ən böyük təminatı olacaqdır". Ərdoğan Dağlıq Qarabağ məsələsində Azərbaycanın haqlı mübarizəsinə daim dəstək verəcəklərini, Minsk qrupunun bu məsələdə təxminən 25 il vaxt itirdiyini qeyd etdi, Xocalı qətliamını XX əsrin ən böyük vəhşətlərindən biri kimi dəyərləndirdi. Bir sözlə, iki dövlət başçısının bu görüşü Azərbaycan-Türkiyə münasibətlərinin əbədi və qırılmaz tellərlə bağlandığını bir daha təsdiqlədi.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib

Fərhad Abdullayevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun xüsusi konstitusiya icraatı qaydasında növbəti açıq məhkəmə iclası keçirilib.

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının müraciəti əsasında Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1134-cü, 1146-cı və 1252-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim S.Salmanovanın məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssisin çıxışlarını, ekspertin rəyini dinləyib, işin materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1134-cü, 1145-ci və 1146-cı maddələrinə uyğun olaraq miras fiziki şəxsin öldüyü və ya ölmüş elan edilməsi barədə məhkəmə qərarının qüvvəyə mindiyi gün onun ölümü və ya məhkəmə tərəfindən ölmüş elan edilməsi ilə açılır və miras qoyanın öldüyü anda sağ olmuş şəxslər vərəsə ola bilərlər.

Eyni gündə ölən və biri digərindən sonra vərəsə olmaq hüququna malik şəxslərlə bağlı irsi transmissiyanın tətbiqi üçün miras qoyanın dəqiq ölüm anı müəyyənləşdirilərək daha sonra ölən şəxs ondan əvvəl ölən şəxsə vərəsə hesab edilir. Bu anı müəyyənləşdirmək mümkün olmadığı təqdirdə eyni gündə ölən şəxslər hüquqi varislik baxımından eyni anda ölmüş şəxslər hesab olunaraq hər biri üçün ayrılıqda miras açılır və irsi transmissiyanın tətbiqi istisna edilir.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

# Müdafiə naziri genişmiqyaslı təlimlərin komanda idarəetmə məntəqəsində olub



Azərbaycan Ordusunun genişmiqyaslı komanda-qərargah təlimləri davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimin növbəti mərhələsində Müdafiə naziri general-polkovnik Zakir Həsənov səhra şəraitində ərazidə açılmış təlimin komanda idarəetmə məntəqəsində olub və qoşunların döyüş fəaliyyətinin təşkilini yoxlayıb.

Ümumi əməliyyatların planlaşdırılması, təminat, döyüşü idarəetmə, artilleriya, hava hücumundan müdafiə və digər qoşun növlərinin idarəetmə qruplarına, maket və taktiki sinif otaqlarına baş çəkən Müdafiə naziri idarəetmə orqanlarının fəaliyyəti xüsusilə silahlanmaya yeni qəbul olunan döyüş vasitələrinin istifadəsi ilə bağlı müvafiq göstərişlər verib.

# Genişmiqyaslı təlimlər zamanı real şəraitdə ərazinin kəşfi aparılıb



Azərbaycan Ordusunun genişmiqyaslı komanda-qərargah təlimlərinin növbəti mərhələsinin tələblərinə uyğun olaraq, döyüş tapşırıqlarının dəqiqləşdirilməsi və mövcud döyüş vəziyyətinin qiymətləndirilməsi məqsədilə real şəraitdə ərazinin kəşfi aparılıb. Müdafiə naziri general-polkovnik Zakir Həsənov təlimin ssenarisinə əsasən vəzifəli şəxslərin məruzələrini dinləyib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimdə iştirak edən qoşunların qəbul olunan qərara uyğun tətbiqi üzrə tapşırıqlar aydınlaşdırılıb.

# Müdafiə naziri ön idarəetmə məntəqəsində olub



Müdafiə naziri general-polkovnik Zakir Həsənov genişmiqyaslı komanda-qərargah təlimlərinin növbəti mərhələsində səhra şəraitində yaradılan ön idarəetmə məntəqəsində olub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ön idarəetmə məntəqəsində videokonfrans vasitəsilə general-polkovnik Zakir Həsənova təlimin hazırkı vəziyyəti barədə məruzələr edilib.

Sonda Müdafiə naziri əsas və ehtiyat idarəetmə məntəqələrində yaradılmış qrupların fəaliyyətini izləyib.

# Təlimlərdə iştirak edən döyüş aviasiya vasitələrinin yerdəyişməsi həyata keçirilib



Genişmiqyaslı komanda-qərargah təlimlərinin planına uyğun olaraq döyüş aviasiya vasitələrinin yerdəyişməsi həyata keçirilib.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, döyüşə hazır vəziyyətə gətirilən təyyarə və helikopterlər ehtiyat aerodromlara çıxarılıb və hava hücumundan müdafiə vasitələrinin ərazidə yerləşdirilməsi sona çatdırılıb.

# *XİN:* Ermənistan absurd mövqeyi ilə özünü kifayət qədər gülünc vəziyyətə salır

Ermənistan əslində belə bir absurd mövqeyi ilə özünü kifayət qədər gülünc vəziyyətə salır. Göründüyü kimi, bölgəmizdə və onun ətrafında baş verən və sürətlə cərəyan edən hadisələr ya onların görmə qabiliyyətindən və təhlil sahəsindən kənarda qalır, ya da emosiyalar yenidən üstünlük təşkil edir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlunun Ankarada ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşünə dair Ermənistan XİN-in mövqeyini şərh edərkən deyib.

Bildirib ki, dünyada və xüsusilə də bölgədə baş verən hadisələrin dəqiq və müfəssəl təhlili erməni tərəfinin qonşu ölkələrlə münasibətlərində konstruktiv yanaşmasına kömək edə bilərdi. "Türkiyə bölgədəki bütün layihə və proseslərin fəal iştirakçısıdır və Ermənistanla Azərbaycan arasındakı münaqişənin tezliklə həllində maraqlıdır. Türkiyə ATƏT-in Minsk qrupu yarandığı ilk gündən onun daimi üzvüdür və hər zaman onun işində, eləcə də ATƏT-in Minsk qrupu həmsədrləri ilə məsləhətləşmələrdə fəal iştirak edib. Emosiyaları yüksək olsa da belə, Ermənistan tərəfinin Türkiyənin yüksək səviyyəli nümayəndələrinin ATƏT-in Minsk qrupu həmsədrləri ilə görüşünün qiymətləndirilməsində nədən təhrifə yol verdiyi aydın deyil", - deyə Leyla Abdullayeva qeyd edib.

# Oksford Universitetinin Ertegun House Mərkəzində Bərdə şəhərinin orta əsrlər arxeologiyasına həsr olunmuş kollokvium keçirilib

**Fevralın 27-28-də Böyük Britaniyanın Oksford Universitetinin Ertegun House Mərkəzində Bərdə şəhərinin orta əsrlər arxeologiyasına həsr olunmuş kollokvium keçirilib.**



AZƏRTAC xəbər verir ki, Bərdənin Arxeoloji Tədqiqatları layihəsi 2013-cü ildə dünyanın ən qocaman və nüfuzlu universitetlərindən biri olan Oksford Universitetinin strukturunda Azərbaycanın, Qafqazın və Mərkəzi Asiyanın tarixinin, dillərinin və mədəniyyətlərinin öyrənilməsi məqsədilə daimi əsaslarla yaradılmış Nizami Gəncəvi Mərkəzinin çox vacib elmi təşəbbüslərindən biridir.

Mərkəzin həyata keçirdiyi elmi əsərlərin yüksək akademik səviyyədə tərcümə edilməsi, beynəlxalq konfransların təşkili, əlyazmaların öyrənilməsi, aspirant və magistrantların hazırlanması kimi bir çox maraqlı layihələr arasında Bərdə şəhərində aparılan arxeoloji tədqiqatlar xüsusi yer tutur. Arxeoloji ekspedisiyaların əsas məqsədlərindən biri dünya elmi ictimaiyyətinə Azərbaycanın bu şəhərinin qədim irsi və zəngin tarixi haqqında daha dolğun məlumat verməkdir. Kollokviumun keçirilməsindən bir gün əvvəl SOAS Universitetinin professoru Oksford Universitetinin Xəlili Tədqiqat Mərkəzinin İncəsənət tarixi və Arxeologiya kafedrasını təmsil edən Skott Redfordun mühazirəsi keçirildi. Mühazirənin mövzusu "Cənubi Qafqaz orta əsrlərdə (XI-XIII əsrlər)" idi. Kollokviumun proqramı çərçivəsində 4 elmi sessiya keçirildi və burada Bərdə arxeoloji ekspedisiyasının iştirakçıları çıxış etdilər.

Oksford Universitetinin Şərqşünaslıq fakültəsinin dekanı, Tibet və Himalayşünaslıq üzrə professor Ulrike Rosler və Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, AMEA-nın vitse-prezidenti, Oksford Universitetinin Nizami Gəncəvi Elmi Mərkəzinin (www.orinst.ox.ac.uk/nizami-ganjavi-programme-study-languages-and-cultures-azerbaijan-and-Qafqaz) İdarə Heyətinin üzvü, akademik Nərgiz Paşayeva iştirakçıları salamlayaraq tədbiri açıq elan etdilər.

İştirakçılara müraciət edən professor **Nərgiz PAŞAYEVA** dedi:

"Hörmətli həmkarlar və qonaqlar!

Sizi burada görməkdən çox məmnunam. Əminəm ki, Bərdə arxeoloji qazıntılarına dair keçirilən bu tədbir maraqlı və faydalı olacaqdır. Elmi müzakirələr Qafqazın tədqiqinə dəyərli töhfə verəcək və bu sahədəki müəyyən boşluqların doldurulmasına imkan yaradacaq. Bundan əlavə, Bərdə arxeoloji layihəsi insanları və mədəniyyətləri bir-birinə daha da yaxınlaşdırır. Bu ilin payızında Bakıda Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya İnstitutunda Bərdədə aparılan qazıntı işləri və orada tapılan eksponatlarla bağlı seminar və sərgi keçirməyi planlaşdırırıq.

Azərbaycan arxeologiyasının tarixi haqqında bir neçə kəlmə də demək istərdim. Azərbaycan Xalq Cümhuriyyəti dövründə - 1919-cu il dekabrın 7-də Azərbaycan Parlamentinin birinci ildönümü şərəfinə Müstəqillik muzeyi yaradılmışdır. Bu muzey parlamentin binasında açılmışdı və burada arxeoloji tədqiqatlar nəticəsində əldə olunmuş eksponatlar təqdim edilmişdir. 1920-ci ildə bu muzeyin bazasında Azərbaycan Tarixi Muzeyi yaradıldı. Beləliklə, biz arxeoloji təməlin qoyulduğunu deyə bilərik. O dövrdə muzeyin rəhbəri milli arxeoloji məktəbin ilk nümayəndəsi olan, tarixçi və etnoqraf Davud bəy Şərifov idi. 1920-ci ildə bu muzey Azərbaycanda ilk arxeoloji tədqiqat işlərini təşkil etdi. Bu işlər Şirvanşahlar və Bakıda Qız qalası kompleksində təşkil edildi. Bu gün biz Azərbaycanda ilk arxeoloji layihənin 100 illik yubileyinin şahidi oluruq.

Rusiya imperiyası dövründə Tiflis Qafqazın inzibati mərkəzi olduğu üçün bütün bölgədən bir çox arxeoloji tapıntılar məhz Tiflisdə yerləşən Qafqaz muzeyinə göndərilirdi. 1925-ci ildə Davud Şərifovun təşəbbüsü ilə bəzi eksponatlar Azərbaycan Tarixi Muzeyinə verildi. Muzeyə verilən eksponatlar arasında bir sıra çox maraqlı materiallar var. Məsələn, "Redkin Lager" haqqında materialları və Rusiya imperiyası tərəfindən dəvət edilmiş Fridrix Bayern haqqında bəzi məlumatları qeyd etmək olar. Bu materiallar hazırda Azərbaycan Tarixi Muzeyində saxlanılır.

Azərbaycanın arxeoloji elmi beynəlxalq səviyyədə geniş şəkildə təmsil olunmamışdı. Biz yalnız 1981-ci və 1982-ci illərdə Fransada, Parisdəki İslam Muzeyində keçirilən və qədim insan məskənlərinin təmsil olunduğu sərgiləri xatırlaya bilərik. Sovet İttifaqı burada Məmmədəli Hüseynov tərəfindən aşkar edilmiş Azərbaycandakı Azıx mağarasından yalnız bir eksponatı təqdim etdi.

Mən, həmçinin azərbaycanlı alim İsa Səlimxanovun da fəaliyyətini qeyd etmək istərdim. Yerli mütəxəssislərin müstəqil təbliğinin və tanınmasının əleyhinə olan sovet ideologiyasına baxmayaraq, 1987-ci ildə İsa Səlimxanov Alman Arxeologiya İnstitutunun üzvü, Kaliforniya Universitetində Arxeoloji Cəmiyyətin üzvü və İngilis Metallurgiya Cəmiyyətinin fəxri üzvü seçilmişdir. 2002-ci ildə onun əsərləri Zana Dai onlayn kataloquna daxil edilmişdir.

Sonda bütün həmkarlarıma, xüsusilə də professor Edmund Hertziq və doktor Pol Vordsvorta, eləcə də bizə kömək edən və dəstəkləyən hər bir kəsə təşəkkürümü bildirmək istərdim.

Diqqətinizə görə təşəkkür edirəm və sizə seminarın işində uğurlar arzulayıram!"

Professor Nərgiz Paşayevanın çıxışından sonra Bərdə şəhərində aparılan arxeoloji tədqiqatların iştirakçıları olan məşhur alimlər ərazidə apardıqları qazıntılardan danışdılar.

Bərdə və Arranın tarixinə və tarixşünaslığına həsr olunmuş ilk sessiyada Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun professoru **Edmund Hertziq** "Orta əsrlərin Azərbaycan tarixinin yazılması" adlı məruzə ilə çıxış etdi.

Sonra "Azərbaycanda orta əsrlər dövrünün arxeologiyası" mövzusunda Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, tarix elmləri doktoru, akademik **Nailə Vəlixanlı** çıxış etdi.

"Bərdənin tədqiqinə arxeoloji yanaşma və Azərbaycanda orta əsr şəhərlərinin landşaftları" mövzusuna həsr olunmuş ikinci sessiyada üç alimin çıxışı təqdim olundu.

"Bərdənin şəhər mənzərəsi, 600-1200" adlı məruzə ilə Oksford Universitetinin Brasenos Kollecinin elmi tədqiqatçısı, Bərdə Arxeoloji Ekspedisiya qrupunun rəhbəri **Pol Vordsvort** çıxış etdi.

Orta Asiya, islam arxeologiyası və Qafqaz arxeologiyası üzrə mütəxəssis, Oksford Universitetinin Arxeologiya Məktəbinin təmsilçisi **Keti Kempbellin** təqdim etdiyi mövzu "Monqollar Qafqaz şəhərlərində" adlanırdı. Gürcüstanlı arxeoloq, Tbilisi Dövlət Universitetinin əməkdaşı **David Naskidaşvilinin** çıxışında Qafqazın orta əsrlər dövrü tarixinə aid arxeoloji qazıntı təcrübəsi barədə geniş məlumat verildi.

Üçüncü sessiyanın mövzusu "Bərdə şəhərindən əldə olunan bioarxeoloji dəlillər" adlanırdı və burada üç məruzəçi çıxış etdi. Zooarxeoloq, İngiltərənin Ekseter Universitetinin həndəsi morfometriya sahəsi üzrə mütəxəssisi, Almaniyanın Martin Lüter adına Halle-Vittenburg Universitetinin fəxri elmi işçisi **Eşli Haruda** "Orta əsrlər Bərdə şəhərinin qidalanma xüsusiyyətləri və iqtisadiyyatı" adlı məruzəsi ilə geniş məlumat verdi. Miçiqan Universitetini təmsil edən, Roma imperiyası dövrü Şimali Afrika, həmçinin landşaft arxeologiyası üzrə mütəxəssis **Devid Stoun** "Şəhərdə aşkar edilmiş arxeobotanik izlər" adlı məruzəni təqdim etdi. Nyu York Universitetinin Qədim Dünya Araşdırmaları İnstitutunun əməkdaşı, qədim insanların qida rasionu və məhsulların çeşidini araşdıran doktor **Selin Nugent** Bərdə və onun ətrafında - Qaratəpə ərazisində məskunlaşan insanlara aid məlumatları iştirakçılara çatdırdı.

"Bərdənin maddi mədəniyyəti" adlı dördüncü sessiyada Edinburq Universitetinin Arxeologiya Məktəbinin tədqiqatçısı **Timoti Penn** və Milli Azərbaycan Tarixi Muzeyinin tədqiqatçısı, Bakı Dövlət Universitetinin Tarix kafedrasının müəllimi **Aslan Qasımov** "Orta əsr Bərdənin şüşə qabları və zərgərlik əşyaları" adlı məruzə ilə çıxış etdilər. A.Qasımovun çıxışında Milli Tarix Muzeyində Bərdə ilə bağlı mövcud materiallar haqqında məlumatlar da verilmişdir.

Xatırladaq ki, 2015-ci ildən başlayaraq Oksford Universitetinin Brasenose Kollecinin tədqiqatçı-arxeoloqu Pol Vordvorstun rəhbərliyi ilə hər il Bərdənin Qaratəpə və Torpaqqala ərazilərində Britaniyanın Oksford və Edinburq universitetlərinin, ABŞ-ın Pensilvaniya Universitetinin, İrlandiyanın Dublin Universitetinin, Almaniyanın Halle-Vittenburg Universitetinin, Danimarkanın Kopenhagen Universitetinin, Gürcüstanın Tbilisi Dövlət Universitetinin, həmçinin ABŞ-ın İslam İncəsənəti üzrə Doris Duke Fondunun (Doris Duke Foundation for Islamic Art, USA), Britaniyanın York Arxeoloji Etimad (York Archaeological Trust) və "Sərhədsiz İrs" (Heritage Without Borders) təşkilatlarının, Sofiyadakı Amerika Tədqiqat Mərkəzinin (American Research Center in Sofia Foundation) nümayəndələrinin iştirakı ilə arxeoloji qazıntı işləri aparılır.

Ekspedisiyanın tərkibində Azərbaycan Tarixi Muzeyinin əməkdaşı, Bakı Dövlət Universitetinin Tarix kafedrasının müəllimi və BDU-nun Tarix fakültəsinin iki tələbəsi də qazıntı işlərində iştirak etmişdilər. Ümumilikdə qazıntı və tədqiqat işlərində 24 arxeoloq iştirak etmişdir.

2018-ci ilin mart və 2019-cu ilin aprel aylarında Bərdədə aparılan arxeoloji qazıntılar zamanı aşkar edilmiş maddi mədəni nümunələrin fraqmentlərinin bir qismi elmi və laborator tədqiqatların aparılması üçün Oksford Universitetinə göndərilmişdir. Bərdə rayonunun Qaratəpə adlanan ərazisində V-VI əsrlərə aid yaşayış məskəni aşkar edilmişdir.

Qeyd edək ki, Qaratəpə ərazisi ilk dəfə Bərdə arxeoloji tədqiqat layihəsi çərçivəsində elmi-tədqiqat obyekti olmuşdur. Qazıntılar zamanı tapılan materialların bir hissəsi radiokarbon analizinə də məruz qalmış və bu tapıntıların V əsrin sonu - VI əsrin əvvəllərinə təsadüf etdiyi müəyyən olunmuşdur. Qaratəpədəki qazıntılar erkən orta əsrlər dövründəki insanların kənd həyatını öyrənmək üçün ciddi bir addım oldu.

Konfrans başa çatdıqdan sonra təşkilatçılar və tədbir iştirakçıları öz fikir və təəssüratları ilə bölüşdülər.

**Edmund HERTZİQ** - Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun professoru:

- Azərbaycan olduqca zəngin tarixə və zəngin mədəniyyətə malikdir. Arxeoloji qazıntılar aparmaq üçün çox maraqlı məkanlar var. Möhtəşəm yazılı irs mövcuddur. İndiyədək xüsusilə də Qərbdə bütün bunlar çox az tanınıb və tədqiq olunub. Sözsüz ki, Qərbdən fərqli olaraq Sovet İttifaqında, o cümlədən Azərbaycanda buna daha çox diqqət ayrılıb. Mərkəzimizin məqsədlərindən biri də bununla bağlı işləri həyata keçirməyə çalışmaqdır və bu işlərə Qərbdən olan daha çox tələbə və elmi işçiləri həvəsləndirərək cəlb etmək, həm də onlara Azərbaycanda tədqiqat aparmağa kömək göstərməkdir. Eyni zamanda insanların bir-biri ilə ünsiyyətdə olmasını təmin etmək çox böyük əhəmiyyət kəsb edir. Biz Azərbaycanda aparılmış və hazırda aparılan, eləcə də sovet dövründə həyata keçirilmiş tədqiqatlar barədə daha çox məlumat əldə etmək istəyirik və azərbaycanlı həmkarlarımızın Qərbdə işləyən alimlərlə daha sıx əlaqə saxlaya bilməsini arzulayırıq.

Professor **Nərgiz PAŞAYEVA:**

- Bu, nadir bir layihə idi. Nəyə görə? Çünki Bərdədə aparılan qazıntı işlərini biz ilk dəfə idi ki, elmi səviyyədə və beynəlxalq mütəxəssislərin iştirakı və Oksford Universitetinin Nizami Gəncəvinin adını daşıyan, Azərbaycanı, Qafqazı, Orta Asiyanı öyrənən Mərkəzin tədqiqat və tədris prosesi kontekstində həyata keçirdik. İlk dəfə olaraq Qaratəpə ərazisində Bərdənin orta əsrlər və erkən orta əsrlər dövrü haqqında məlumatları əldə etdik. Bu işlər 2015-ci ildən başlamış və 2018-ci ilədək davam etmişdir. Yəni burada 4 mövsüm işlər davam edib... Əslində, layihənin ən böyük dəyəri ondadır ki, o, məhz Oksford Universitetinin Azərbaycanla bağlı bir tədqiqat layihəsidir və elmi maraqlarımızı ən yüksək səviyyədə təmsil edə biləcək bir layihədir.

Bəli, biz Bərdədə arxeoloji qazıntıları həyata keçirdik və bu tədqiqatın nəticələri məhz Oksford Universiteti tərəfindən təqdim olundu... Bu kollokviumda Azərbaycan alimlərinin adı səsləndi. Arxeologiya elminə töhfə verən insanların adının çəkilməsi belə bir müstəvidə böyük bir hadisədir. Əfsuslar olsun ki, alimlərimizin adları ingilis dilində dərc olunan və elm xadimləri haqqında məlumatlar verən elmi statuslu mənbələrdə yox idi... Azərbaycan arxeologiyasına, Azərbaycan tarixinə töhfə verən alimlərin adı burada səsləndi və əlbəttə ki, yazıldı və həmin o çıxışların protokollarında və sənədlərində həmişəlik qalacaq. Bu da sevindirici haldır.

**Pol VORDSVORT** - Oksford Universitetinin doktoru, Bərdə ekspedisiyasının rəhbəri:

- Bizim Bərdədə qazıntılar zamanı aşkar etdiyimiz tapıntıların ən əhəmiyyətli hissəsi XI, XII və XIII əsrlərə aiddir. Həmin dövrdə Azərbaycan ərazisində Eldənizlər dövləti hakimiyyətdə olub. Bizim aşkar etdiklərimiz Azərbaycan tarixində iqtisadi cəhətdən çox parlaq və siyasi cəhətdən mühüm bir dövrə aiddir. Biz İran və Anadoludan uzaq məsafəli ticarətin ticarət mərkəzi kimi Azərbaycanda cəmləşdiyini göstərən materiallar, eləcə də bu şəhərdə, həmçinin Gəncə və digər böyük şəhərlərdə ölkənin mədəniyyət mərkəzi olduğuna dair faktlar aşkar etmişik... Biz Bərdədə aparılmış arxeoloji qazıntıların nəticələrini dərc etmək üçün bir naşirlə birgə işləyəcəyik. Biz qazıntıların nəticələrini, eləcə də Dövlət Muzeyində saxlanılacaq artefaktlarla bağlı mühüm məlumatları dərc edəcəyik. Bu kitab icmalları rus və Azərbaycan dillərində olmaqla, ingilis dilində də nəşr ediləcək.

**Skott REDFORD** - Londonun SOAS Universitetinin professoru:

- Konfransın mövzusu Bərdə şəhərində aparılan qazıntılar olsa da, bütün orta əsrlər Azərbaycan ərazisinə baxılır. Əfsuslar olsun ki, Azərbaycanda olmamışam, ancaq ölkənizin çox zəngin tarixi olduğunu bilirəm. Çox maraqlı seramika, şüşə və metal əşyaları var ki, mən bunlarla əlaqədar konfransda təklif irəli sürdüm. Təklifim isə budur ki, orta əsrlər tarixinə aid toplanılmış materiallardan bəhs edən kitab tərtib olunsun və Oksford Universitetinin Nizami Gəncəvi adına Elmi mərkəzi kitabı ingilis dilinə tərcümə etsin. Çünki biz Azərbaycanın orta əsrlər tarixini öyrənmək istəyirik.

**Nailə VƏLİXANLI** - Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik:

- Azərbaycan alimləri təxminən 1920-ci ildən başlayaraq Azərbaycan şəhərlərini arxeoloji baxımdan öyrənilməsi ilə məşğul olublar. Lakin xarici alimlər, xüsusilə Qərbi Avropa alimləri tərəfindən Azərbaycan tarixinə olan bu böyük maraq Azərbaycanın dünyaya tanıdılması üçün ən gözəl vasitələrdən biridir... İngilis alimlərini Azərbaycanın tarixini təkcə arxeoloji cəhətdən deyil, həmçinin Azərbaycanın tarixinin kimlər tərəfindən öyrənilməsi, Azərbaycan tarixçilərinin öz tarixləri barədə hansı əsərlər yazması maraqlandırır... Onlar aparılan tədqiqatların nəticələrindən çox düzgün istifadə ediblər. Biz həm iqtisadi, həm siyasi məsələlər, burada əhalinin yerləşməsi, insanların buradakı vəziyyəti, sənətkarlıq, ticarət - nə istəyirsiniz var. Hətta paleontoloqlar - elə məsələlər qoyulub ki, onlar tariximizin açılması və işıqlandırılması baxımından çox maraqlıdır.

**Mircavid AĞALAROV** - BDU-nun Tarix fakültəsinin tələbəsi:

- Bakı Dövlət Universitetinin tələbəsi olaraq Oksford Universitetindən gələn mütəxəssislərlə birgə işləmək çox maraqlı idi. Orta əsrlər Bərdə tarixi çox da tədqiq olunmadığı üçün bu genişmiqyaslı tədqiqatda iştirak etmək mənə böyük qürur hissi verir. Həmin arxeoloji qazıntılarda iştirak etməyimin nəticəsi olaraq Oksford Universitetində keçirilən konfransda iştirak etmək böyük uğurdur və buna görə çox şadam.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## DB və BVF-də Azərbaycanda aparılan islahatlardan danışılıb

**Dünya Bankı (DB) və Beynəlxalq Valyuta Fondunda (BVF) Azərbaycanda həyata keçirilən islahatlarla bağlı müzakirələr aparılıb.**

Maliyyə Nazirliyinə istinadən AZƏRTAC xəbər verir ki, nazir Samir Şərifov ABŞ-ın paytaxtı Vaşinqtona səfəri çərçivəsində Beynəlxalq Valyuta Fondunun sərəncamçı direktoru Kristalina Georgiyeva ilə görüşüb. S.Şərifov BVF-nin sərəncamçı direktoruna Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən genişmiqyaslı islahatlar haqqında müfəssəl məlumat verib.

K.Georgiyeva Prezident İlham Əliyev ilə 2019-cu ilin yanvarında Davos İqtisadi Forumunda keçirdiyi görüşü xatırladaraq Azərbaycanda həyata keçirilən iqtisadi islahatlarla bağlı ətraflı məlumat aldığını və BVF-nin bu istiqamətdə ölkəmizə lazım olan bütün zəruri dəstəyi göstərməyə hazır olduğunu deyib.

Görüşdə ölkəmizin regional və qlobal miqyasda oynadığı mühüm rolun əhəmiyyəti vurğulanıb, həmçinin beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlığın müasir vəziyyəti və keyfiyyətcə yeni səviyyəyə yüksəldilməsi ətrafında səmərəli müzakirələr aparılıb.

Maliyyə naziri S.Şərifovun Beynəlxalq Valyuta Fondunun Yaxın Şərq və Mərkəzi Asiya departamentinin rəhbəri Cihad Azur və fondun Azərbaycan üzrə missiya rəhbəri Nataliya Tamirisa ilə keçirdiyi görüşdə Azərbaycanda Ortamüddətli Xərclər Çərçivəsinin tətbiqi və BVF-nin 4-cü maddəsi çərçivəsində bu qurumun missiyasının cari ilin iyul ayında ölkəmizə nəzərdə tutulan səfəri ilə bağlı hazırlıqlar müzakirə edilib.

S.Şərifov həmçinin Dünya Bankının vitse-prezidenti Siril Müller ilə görüşüb. Görüşdə ötən ay Prezident İlham Əliyev və DB-nin icraçı direktoru Aksel Van Trontsenburq arasında Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilmiş görüşündən irəli gələn məsələlərin icrası və gələcək əməkdaşlıq planları barədə müzakirələr aparılıb.

Səfər çərçivəsində Azərbaycanın Maliyyə naziri ABŞ-ın Dövlət katibinin İqtisadiyyat və biznes məsələləri üzrə köməkçisinin birinci müavini və Azərbaycan-ABŞ İqtisadi Tərəfdaşlıq Komissiyasının ABŞ tərəfindən həmsədri Peter Xaas ilə də görüşüb. Görüşdə Hökumətlərarası Komissiyanın növbəti iclasının 2020-ci ilin payızda Vaşinqtonda keçirilməsi və iqtisadi əməkdaşlıq çərçivəsində qarşılıqlı maraq kəsb edən digər məsələlər müzakirə edilib.

## “Petkim”in məhsul istehsalı rekord göstəriciyə çatıb

**SOCAR-ın Türkiyədəki “Petkim” neft-kimya kompleksinin ötənilki istehsalı rekord göstəriciyə - 3,4 milyon tona çatıb.**



AZƏRTAC “Petkim PetroKimya Holding A.Ş.”yə istinadla xəbər verir ki, 2019-cu ildə məhsul istehsalı əvvəlki illə müqayisədə 24 faiz artıb. Kompleks keçən il 92 faizlik istehsal gücü ilə fəaliyyət göstərib.

“Petkim PetroKimya Holding A.Ş.”nin icraçı direktoru Anar Məmmədov deyib ki, şirkət 2019-cu ildə “Star” neft emalı zavodundan (NEZ) ümumilikdə 759 min ton nafta alıb. “Petkim”də ötən il həyata keçirilən 23 enerji səmərəliliyi layihəsi ilə 3,3 milyon dollara qənaət olunub. Zavodun obyektlərinin bütün aktivlərin əməliyyat etibarlılığı və qabiliyyəti əvvəlki ilə nisbətən 4,1 faiz artıb. Şirkət səmərəliliyə və çevikliyə yönəlmiş 109 layihə ilə 2019-cu ildə 52 milyon dollarlıq əlavə iqtisadi dəyər yaradıb. “Petlim Limancılık Ticaret A.Ş.”nin aktivləri isə əvvəlki illə müqayisədə təxminən 7 faiz artıb.

**Bu bir həqiqətdir ki, dünya sənayesi müxtəlif inkişaf mərhələlərindən keçmişdir. Buxar maşınının kəşf edilməsi ilə toxuculuq sənayesinin inkişafı bunun başlanğıcı olmuşdur. Daha sonra sənaye sektoru mürəkkəb texnika və texnologiyaların kəşfi ilə mütərəqqi yol qət etmişdir. Elə müasir inkişafımız da birbaşa bu sahə ilə bağlıdır.**



## Azərbaycanda sənayeləşmə iqtisadi inkişafla yanaşı, sosial rifaha da xidmət edir

Hazırda dünyada ölkələrin inkişaf səviyyəsi bu sektorun imkanları ilə ölçülür. Bu gün sənayesi inkişaf etmiş ölkə statusunu daşıyan dövlətlərin sayı çox azdır. Əvəzində inkişaf etməkdə olan ölkələrin sayı çoxdur, özü də qat-qat. Azərbaycan da bugünkü inkişaf səviyyəsinə görə həmin ölkələr sırasında özünə layiqli yer tutur. Hədəfimiz isə tezliklə inkişaf etmiş ölkələr sırasına daxil olmaqdır. Prezident İlham Əliyev də dəfələrlə bunu bəyan etmişdr. Həm də təkcə bəyan etməmişdir, bu istiqamətdə əməli tədbirlər həyata keçirmişdir. Ölkə iqtisadiyyatının şaxələndirilməsi, o cümlədən qeyri-neft sektorunun inkişafı həmin tədbirlər sırasında xüsusi əhəmiyyətə malikdir. Ümumi istehsalda qeyri-neft sektorunun payının ildən-ilə artması bu tədbirlərin real nəticəsidir.

Məlumdur ki, Azərbaycanda sənayeləşmə prosesini sürətləndirmək məqsədilə 2015-2020-ci illəri əhatə edən “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası qəbul olunmuşdur. Bu sənədlə sənayenin inkişaf perspektivləri, eləcə də sənaye potensialının gücləndirilməsi, sözügedən sahədə rəqabətqabiliyyətliliyin artırılması, kadr potensialının, elmi təminatın yaxşılaşdırılması, normativ-hüquqi bazanın təkmilləşdirilməsi müəyyənləşdirilmişdir.

Sənayeləşmədə ölkədə yaradılan texnoparkların əhəmiyyəti böyükdür. Texnoparklar yüksək keyfiyyətli məhsul istehsal etmək qabiliyyətinə malikdir. Odur ki, son dövrlər Bakıda, eləcə də bölgələrdə texnoparkların və sənaye məhəllələrinin yaradılması istiqamətində böyük işlər görülür və nəticədə həmin texnoparklarda xarici və yerli sahibkarların fəaliyyəti getdikcə genişlənir. Götürək Sumqayıt Kimya Sənaye Parkını. Prezident İlham Əliyevin 21 dekabr 2011-ci il tarixli fərmanı ilə yaradılan parkda innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli məhsul istehsal olunur, dünya bazarına keyfiyyətli məhsul çıxarılır, əhalinin məşğulluğu təmin edilir.

Bu yerdə qeyd edək ki, Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar “Steykholder kapitalizmi”nin (“Steykholder kapitalizmi” hazırda dominant model olaraq uzunmüddətli dəyər yaratmağı, hər kəsə - investorlara, işçilərə, icmalara, təchizatçılara və müştərilərə daha yaxşı xidmət göstərməyi hədəfləyir) tələblərinə uyğundur. Belə ki, ölkəmizdə aparılan sənayeləşmə dərin elmi araşdırmalar əsasında həyata keçirilir. İlk növbədə, hansı regionda və hansı xammaldan istifadə etməklə məhsul istehsalına diqqət yetirilir. Bununla yanaşı, bölgələrdə işsizliyin aradan qaldırılması və orada yaşayan əhalinin məşğulluğu əsas götürülür. Sözsüz ki, müasir texnologiyalardan istifadə etməklə yüksək keyfiyyətli məhsul istehsalı da əsas şərtdir.

İndiyədək bu tipli sənaye sahələrinə 6 milyard manata yaxın investisiya yatırılıb və bu hesaba 9 mindən çox yeni iş yeri açılıb. Keçən il həmin müəssisələr tərəfindən istehsalın həcmində 2,6 dəfə artım qeydə alınıb. Yaxın gələcəkdə isə dövlət tərəfindən verilən investisiya təşviqi sənədləri üzrə layihələrin reallaşması yerli istehsala 4 milyard manatdan artıq investisiyanın yatırılmasına, əlavə 28 minədək yeni iş yerlərinin açılmasına imkan yaradacaq. Qeyd edək ki, bu layihələrin 87 faizi regionların payına düşür. Ümumiyyətlə, ölkəmizdə sənayenin inkişafına hərtərəfli dəstək verilir. Təkcə ötən il Sahibkarlığın İnkişafı Fondu tərəfindən 1573 sahibkarlıq subyektinə 175 milyon manat güzəştli kreditlər verilmişdir.

Sənayenin xüsusilə regionlarda inkişafı ayrıca vurğulanmalıdır. Bir neçə fakta nəzər salaq: bölgələrdə 2005-ci illə müqayisədə ötən il qeyri-neft sektoru üzrə ümumi vergi daxilolmalarının xüsusi çəkisi 2 dəfə artaraq 15 faizə çatıb. Əmək bazarının leqallaşması və yeni iş yerlərinin yaradılması hesabına keçən il dövlət sosial sığorta haqqı üzrə regionlardan daxilolmalar 28 faiz artıb. Bu artımlar həm də regionlarda yeni iş yerlərinin açılmasından xəbər verir.

Prezident İlham Əliyev “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda bu barədə demişdir: “14 faizdən çox artan qeyri-neft sənayemiz yeni iş yerlərinin yaradılması deməkdir. Qeyd etməliyəm ki, keçən il 98 min yeni iş yeri yaradılmışdır. Mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bu, daimi proses olmalıdır”. Dövlət başçısının dediklərindən də görünür ki, ölkənin sənayeləşmə prosesi təkcə iqtisadi inkişafa yox, həm də sosial rifaha xidmət göstərir. Bu, eyni zamanda həyata keçirilən iqtisadi inkişaf konsepsiyasının humanist xarakter daşıdığını sübut edir.

*Rüstəm KAMAL,*
*“Azərbaycan”*

## Növbəti “KOB Dostu” Mingəçevirdə

**İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) növbəti Kiçik və Orta Biznes Dostu (“KOB Dostu”) Mingəçevir şəhərində fəaliyyətə başlayıb.**




Bununla bağlı KOBİA-nın təşkilatçılığı, Mingəçevir Şəhər İcra Hakimiyyətinin dəstəyi, sahibkarların və onlara xidmət göstərən dövlət qurumlarının iştirakı ilə tədbir keçirilib.

Tədbirdə çıxış edən KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov agentliyin fəaliyyəti, KOB-lara dəstək tədbirləri, “KOB Dostu” mexanizmi barədə məlumat verib. Qeyd olunub ki, KOB dostları tərəfindən regionlarda mikro, kiçik və orta sahibkarlara biznesin qurulması, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi üçün müxtəlif dəstək və xidmətlər göstərilir, KOB maraqlarının müdafiəsi istiqamətində tədbirlər həyata keçirilir. “KOB Dostu” ilə fəal əməkdaşlıq Mingəçevirdə və ətraf rayonlarda yeni biznes sahələrinin yaradılması, sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsi, məşğulluğun artırılması, KOB-ların bilik və bacarıqlarının, məlumatlıq səviyyəsinin yüksəldilməsi, maraqlarının müdafiəsi baxımından əhəmiyyətlidir.

Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov rayonun sosial-iqtisadi inkişafı, rayonda sahibkarlıq fəaliyyəti barədə məlumat verib, “KOB Dostu”nun sahibkarlar və biznesə yeni başlayanlar üçün faydalı dəstək mexanizmi olacağını vurğulayıb.

Tədbirdə Mingəçevirdə KOB Dostu Ayaz Adilov sahibkarlara təqdim olunub, KOBİA-nın fəaliyyətinə və “KOB Dostu” mexanizminə dair video çarxlar nümayiş edilib.

Sonra iştirakçılar Mingəçevir Gənclər Evində fəaliyyət göstərəcək “KOB Dostu”nun ofisi ilə tanış olublar. Məlumat verilib ki, burada sahibkarların müraciətlərinin qəbulu, informasiya, məsləhət, maarifləndirmə, təlim-tədris və s. xidmətlərin göstərilməsi üçün lazımi şərait yaradılıb. Mingəçevir “KOB Dostu” ofisində də “KOB könüllüləri”nin fəaliyyəti nəzərdə tutulur.

## AQTA və OIE-nin birgə regional seminarı keçirilir

**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) və Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (OIE) birgə regional seminarı öz işinə başlayıb. Bakıda keçirilən seminarda 12 ölkənin nümayəndə heyəti iştirak edir.**

“Yarış atlarının beynəlxalq daşınmasını asanlaşdırmaq üçün OIE-nin prosedur və standartları” mövzusunda keçirilən seminarda AQTA-nın sədr müavini Rüfət Rüstəmzadə çıxış edərək son illər ölkəmizdə qida təhlükəsizliyi sahəsində həyata keçirilən tədbirlər, bu istiqamətdə beynəlxalq təşkilatlarla, həmçinin OIE ilə birgə əməkdaşlıq çərçivəsində görülən işlərlə bağlı geniş məlumat verib. Bildirib ki, OIE ilə əməkdaşlıq ölkəmizdə heyvan sağlamlığının təmin edilməsi, bioloji təhlükəsizliyin qorunması və beynəlxalq ticarətin tənzimlənməsində mühüm əhəmiyyət kəsb edir.

Son illər Azərbaycanda qida təhlükəsizliyinin təmin olunması istiqamətində genişmiqyaslı tədbirlərin həyata keçirildiyini qeyd edən R.Rüstəmzadə heyvan sağlamlığı və baytarlıq nəzarəti məsələlərinin daim diqqət mərkəzində saxlanıldığını vurğulayıb: “Hazırda idman atlarının ölkələr arasında daşınması prosesinin tənzimlənməsi çox aktual məsələdir və Azərbaycan atçılıq idman oyunlarında daim təmsil olunur. Respublikamızda mənşəcə başqa ölkələrə məxsus atların olması idman atlarının yarışlarda iştirak məqsədi ilə daşınması və bu zaman onların sağlamlığının qorunması ciddi nəzarət tələb edir”.

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının regional nümayəndəsi Mauro Meske isə Azərbaycanla əlaqələrin yüksək səviyyədə olmasından, bu münasibətlərin bundan sonra daha da inkişaf etdirilməsi istiqamətində həyata keçiriləcək tədbirlərdən danışıb.

Martın 5-də işini tamamlayacaq seminar çərçivəsində müxtəlif mövzularda panel müzakirələrin keçirilməsi nəzərdə tutulur.

## “AgroHackathon 2020” startap müsabiqəsinin məqsədi istedadlı gənclərin aqrar sektora cəlb olunmasıdır

**Bakıda Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi, Aqrar Elm və İnnovasiya Mərkəzi, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin “Eazi Start” Startap və İnnovasiya Mərkəzi, Azərbaycan Sənaye Korporasiyasının təşkilatçılığı ilə “AgroHackathon 2020” startap müsabiqəsinin yekun təqdimat mərasimi keçirilib.**




Tədbirdə Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, dövlət qurumlarının, ali təhsil müəssisələrinin, “Microsoft” şirkətinin, eləcə də Dünya Bankının Azərbaycan nümayəndəliklərinin rəhbər və əməkdaşları iştirak ediblər.

“AgroHackathon 2020” müsabiqəsi haqqında nümayiş olunan filmdən sonra tədbiri giriş sözü ilə açan Aqrar Elm və İnnovasiya Mərkəzinin direktor müavini Əkbər Abbasov müsabiqənin məqsədi və əhəmiyyəti barədə məlumat verib. Bildirib ki, bu müsabiqə kənd təsərrüfatı sahəsində aqrar startapçıların innovativ ideyalarının reallaşması üçün əlverişli şərait yaradacaq.

Çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ceyhun Salmanov “INNOLAND” İnkubasiya və Akselerasiya Mərkəzi tərəfindən həyata keçirilən tədbirlər, o cümlədən startaplara dəstək mexanizmlərindən bəhs edib. Startapçıları uzunmüddətli layihələr üzərində çalışmağa dəvət edən sədr müavini bildirib ki, “INNOLAND” İnkubasiya və Akselerasiya Mərkəzi tərəfindən startap layihələrinə davamlı dəstək göstəriləcək.

Kənd Təsərrüfatı naziri İnam Kərimov isə qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən aqrar sahənin inkişafı prioritet istiqamət kimi elan edilib: “Ardıcıl həyata keçirilən tədbirlər nəticəsində aqrar sahə özünün yeni inkişaf mərhələsinə qədəm qoyub və bu sahədə inkişaf tempi davam edir. Cənab Prezident tərəfindən həyata keçirilən aqrar islahatlar kənd təsərrüfatının daha da inkişafını nəzərdə tutur və bu məqsədlə dövlət tərəfindən çox böyük dəstək tədbirləri həyata keçirilir. Dövlət dəstəyi nəticəsində son bir neçə ildə aqrar sektorda daim inkişaf tempi müşahidə edilir. Təsadüfi deyil ki, təkcə ötən il kənd təsərrüfatı məhsullarının ümumi istehsal həcmi əvvəlki illə müqayisədə 7 faizdən çox artıb”.

Bütün sahələrdə innovativ həllərin tətbiqi ilə bağlı mühüm tədbirlərin həyata keçirildiyini deyən nazir qeyd edib ki, yeni çağırışlar fonunda bu istiqamət dövlət siyasətinin prioritetlərindən birinə çevrilib: “Aqrar sahədə inkişafın əsasını məhz innovasiyaların tətbiqi təşkil edir. Qarşımızda duran əsas vəzifə torpaq və su resurslarından səmərəli istifadə etmək, ətraf mühitin qorunmasını təmin etməkdir. Həmçinin fermerlərin gəlirlərinin artırılması və eyni zamanda xərclərinin azaldılması da əsas hədəflərimizdəndir. Aqrar sahədə məhz bu zərurətlərdən irəli gələn mütərəqqi həllərin, innovativ metodların, müasir texnologiyaların tətbiqi vacibdir. Aqrar sahə innovasiyaların, elektron həllərin, proqramların tətbiqi üçün ən uyğun və tələbkar sahələrdən biridir. Bu gün kənd təsərrüfatı informasiya texnologiyalarının ən geniş tətbiq olunduğu sahələrdən birinə çevrilib. Dronların tətbiqi, subsidiyaların operativ və şəffaf şəkildə verilməsini təmin edən, aqrar xidmətləri fermer üçün daha əlçatan edən Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin yaradılması, dəqiq aqrodataların toplanmasına imkan verən platformaların istifadəyə verilməsi bunların yalnız bir hissəsidir. Kənd Təsərrüfatı Nazirliyi aqrar sahədə innovasiyaların tətbiqini hər zaman dəstəkləyir və bu yanaşma bizim fəaliyyət prinsiplərimizdən birinə çevrilib”. Müasir dövrdə gənclərin aqrar sektora cəlb edilməsinin qlobal çağırışlardan biri olduğunu deyən nazir vurğulayıb: “Ümidvaram ki, “AgroHackathon 2020” müsabiqəsi gənclərin aqrar sahəyə marağını daha da artıracaq. Keçirilən müsabiqə və əldə olunan nəticələr göstərir ki, gənclərimizin bu sahədə böyük potensialı var. Onlar öz bilik və bacarıqlarını aqrar sahəyə dair mobil tətbiqlər yaratmağa, prosesləri proqramlaşdırmağa sərf etməklə ölkədə kənd təsərrüfatının inkişafına öz töhfələrini vermiş olacaqlar”.

Sonra Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlı, “Azərbaycan Sənaye Korporasiyası” ASC-nin baş direktoru Kamran Nəbizadə müsabiqənin əhəmiyyəti ilə bağlı öz fikirlərini bölüşüb, gəncləri startap müsabiqələrində fəal iştirak etməyə çağırıblar.

Qeyd edək ki, bu müsabiqə təşkil edildiyi yer və qoyulmuş problemin unikallığı cəhətdən dünyada bir ilkdir. “AgroHackathon 2020” müsabiqəsi çərçivəsində tapılmış texniki həllərin müasir istixana komplekslərinin idarəetməsində tətbiqi nəzərdə tutulur.



## 53 müəssisədən 450 vakansiya

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən Bakının Sabunçu rayonunun Nardaran qəsəbəsində işsiz və işaxtaranlar üçün əmək yarmarkası keçirilib.**

Aktiv məşğulluq tədbirində 53 müəssisədən 450 vakansiya təqdim edilib. İşsiz və işaxtaran vətəndaşlara bu vakant iş yerlərinə göndərişlər verilib. Peşə və ixtisası olmayan, yaxud peşə bacarığına uyğun iş tapmayan şəxslər isə peşə hazırlığına, ödənişli ictimai işlərə, özünüməşğulluq proqramına cəlb edilmələri üçün qeydiyyata alınıblar.

Məlumat üçün bildirək ki, cari il üzrə əmək yarmarkalarının keçirilməsinə bu ilin yanvar ayından başlanılıb və artıq 16 rayonda yarmarka keçirilib. İl ərzində ümumilikdə 58 şəhər və rayon üzrə 100 əmək yarmarkasının keçirilməsi nəzərdə tutulur.

## Beynəlxalq elmi seminarda bitki və torpağın mühafizəsi məsələləri müzakirə edilib

**Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Aqronomlar İttifaqının və “HH GROUP” şirkətinin təşkilatçılığı ilə beynəlxalq elmi-praktiki seminar keçirilib.**

İntensiv bitki yetişdirilməsi şəraitində bitki mühafizəsi və torpaq qorunması mövzusunda keçirilmiş seminarda nazirliyin qurumlarının, Aqrar Elm və İnnovasiya Mərkəzi, Tərəvəzçilik, Bitki Mühafizəsi və Texniki Bitkilər İnstitutu, Azərbaycan Dövlət Aqrar Universiteti, AMEA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutunun, eləcə də digər elmi müəssisələrin əməkdaşları, fermerlər və rusiyalı elm xadimləri iştirak ediblər.

Tədbir iştirakçıları intensiv əkinçilik zamanı torpağın münbitliyinin qorunub saxlanılması yolları barədə müzakirə aparıblar. Qlobal iqlim dəyişikliyi və məhsul yetişdirmə şəraiti ilə əlaqədar müasir kənd təsərrüfatının ciddi çətinliklərlə üzləşdiyi vurğulanıb. Bununla bağlı tədbir iştirakçılarına bitki sağlamlığı tədbirlərinin elmi təminatı haqqında geniş məlumat verilib. Bildirilib ki, stress amillərinə qarşı dözümlü bitki sortlarının yaradılması, onların əkin arealının genişləndirilməsi, ziyanverici və zərərvericilərə qarşı səmərəli mübarizə tədbirlərinin təşkili, texnoloji innovasiyaların tətbiqi, əkinlərdə pestisid yükünün azaldılaraq bioloji mübarizə üsullarından istifadənin genişləndirilməsi vacib addımlardır.

Vurğulanıb ki, müasir çağırışlar fonunda fermerlərin məlumatlandırılması, onların zərərvericilərə qarşı mübarizə metodları, ətraf mühitin qorunması haqqında bilik və bacarıqlarının artırılması son dərəcə vacibdir. Xarici ölkələrdən gəlmiş qonaqlar öz ölkələrində bu istiqamətdə həyata keçirilən təcrübələr haqqında məlumat veriblər.

Seminarda alimlərin birgə qətnaməsi qəbul olunub. Qətnamədə kənd təsərrüfatı sahəsində istehsal proseslərinin təşkili zamanı təbii resursların qorunması istiqamətində birgə fəaliyyətin əhəmiyyəti, torpaqlardan səmərəli istifadənin sertifikatlaşdırılması, əkinçiliyi tənzimləyən hüquqi-normativ aktların qəbulu, zəhərli pestisidlərin əkinlərdə yükünün azaldılması kimi məsələlər öz əksini tapıb.



Tədbirin sonunda iştirakçılar Bitki Klinikasının fəaliyyəti ilə tanış olublar. Klinikanın rəhbəri Hüseyn Hüseynov fermerlər üçün metodiki göstərişlərin hazırlanması, xidmətlərin təşkili haqqında geniş məlumat verib.

Bu barədə düşünək

# Qoşa qarıyın!

## Boşanmaların artması indi bu xeyir-duanı xəbərdarlığa çevirib

**Qəribə toy idi bu toy. Ağız deyəni qulaq eşitmirdi. Çoxdandır bir-birini görməyən qohumlar hal-əhval tutmağa məqam tapmışdılar. Bəyin dostları və iş yoldaşları ayrı-ayrı masalar arxasında özləri üçün əlahiddə məclis düzəldərək sağlıq deyir, yeyib-içirdilər. Gəlinin rəfiqələri səbirsizliklə "diskoteka"nı gözləyirdilər.**



Arada bir ağsaqqala söz verildi. O, üzünü toyu olan cütlüyə tutub: "Qoşa qarıyın, - dedi. - Amma unutmayın ki, qoşa qarımağın şərti, sirri çoxdur. Əgər bu hikmətə yiyələnə bilsəniz, əl-ələ verərək ömrün çətin yollarında birgə addımlamağı bacaracaqsınız. Onda hər maneədən keçəcək, xoşbəxt olacaqsınız. Arzu edirəm ki, göydə ulduzlarınız, yerdə könülləriniz barışsın, inşallah".

Məclis əhlinin ağsaqqalı dinləmədiyi üçün narahat olan qonaqlardan biri dodaqaltı deyinirdi: "Vallah, bu kişi "qızıl xırdalayır". Amma heç bəylə gəlin də ona qulaq asmır... Eh, indiki cavanlar belə sözləri bir qulaqlarından alıb, o biri qulaqlarına ötürürlər. Ona görə də..."

### Ulduzları barışmayanlar

Gəlin etiraz etməyək. Çünki belə olmasaydı, bir çox cütlüklərin birgə addımladıqları məsafə şadlıq sarayı ilə məhkəmə binasının arası qədər qısa olmazdı.

Əlbəttə, bu, talelərini birləşdirən gənclərin hamısına aid deyil. Hər gün Azərbaycanda onlarca ailə qurulur. Təkcə keçən il ölkədə 63869 nikah qeydə alınıb ki, bu da ondan əvvəlki illə müqayisədə 1385 nikahın çox olması deməkdir. Cavan ailələrin əksəriyyətində mehribanlıq, səmimiyyət hökm sürür, körpələr dünyaya gəlir və xoşbəxt böyüyür. Təsadüfi deyil ki, bu gün Azərbaycan ailəsi dünyada ən nümunəvi ailə modellərindən biri kimi qəbul olunur və dəyərləndirilir.

Bununla belə, ölkədə boşanmaların çox olması, həm də getdikcə artması böyük narahatlıq doğuran problemdir. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2018-ci illə müqayisədə 2019-cu ildə onların sayı 13,3 faiz artıb. Əhalinin hər 1000 nəfərinə hesabı ilə boşanmaların əmsalı yüksəkdir, bir il ərzində 1,5-dən 1,7-yə qalxıb.

Həqiqəti əks etdirən rəqəmlər bu problem üzərində ciddi düşünməyi tələb edir. Belə ki, 2011-ci ildən başlayaraq ölkədə boşanmalar hər il beşrəqəmli sayla ifadə olunur, yəni 10 mini ötüb və getdikcə artmaqda davam edir. Son 5 ilə aid rəqəmlərə nəzər salaq: 2015-ci ildə 12764, 2016-cı ildə 13114, 2017-ci ildə 14514, 2018-ci ildə 14857 və 2019-cu ildə 17148 boşanma qeydə alınıb.

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, vəkil Zaur Abasov deyir: "Gənclər arasında nikahın pozulmalarının bir çox səbəbləri var və hər bir ailədə bu səbəblər fərqli olur. Əksər hallarda bunlar valideynlərin gənclərin ailəsinə müdaxiləsi, cavanların özlərinin müstəqil və bir-birindən asılı olmayaraq həyat tərzi sürmək istəkləri, xasiyyətlərinin uyğun gəlməməsi, yaranan çətinliklərə dözməmələri, bir-birinə qarşı hörmətsizlik göstərərək təhqir etmələri, müəyyən hallarda kişilərin iş tapa bilməmək bəhanəsi ilə ailənin ehtiyaclarını ödəməməsi və digər səbəblərdir. Son zamanlar orta yaş həddinə çatmış şəxslər arasında da boşanmalara rast gəlirik və bunların sayı heç də gənc cütlüklərin boşanmalarının sayından az deyil".

Həyəcan təbili çalınmasının vaxtı çatmayıbmı?!

### Kim öz yarı(sı)nı tapmasa...

Bəzən belə mülahizə yürüdənlər də olur: "Əvvəllər valideynlər bir-birini yaxından tanımayan, bəlkə heç üzünü də görməyən gəncləri evləndirirdi. Necə olurdu ki, onların ulduzları barışır, bacalarından tüstü düz çıxırdı? Uzun illər birgə ömür sürür, oğul-uşaq sahibi olur, qoşa qarıyırdılar. İndiki gənclər isə sevib-sevilirlər, amma bəzən bu sevginin ömrü hələ "Vağzalı"nın sədaları qulaqlardan getməmiş bitir".

Bu sualın cavabını qismən 85 yaşlı Sitarə nənənin söhbətində tapmaq olar: "Əvvəllər qızı uzağa verməzdilər. Elə uzaqdan gəlin gətirmək də tək-tək olurdu. Qohum olan ailələr eyni kəndin, yaxud eyni şəhərin sakinləri idi və təbii ki, bir-birini yaxından tanıyırdılar, ən azı bir-biri haqqında dəqiq məlumat əldə etmək imkanına malik idilər. Qısası, gəlini əsasən oğlanın anası, bacısı, xalası, bibisi seçərdi və demək olar ki, səhv etməzdilər. Çünki onlar artıq bilirdilər ki, evlənəcək oğlanla tanıdıqları qızlardan hansının xasiyyəti uyğun gələ bilər. Kişilər ölçüb-biçərdilər ki, kimin qapısına elçiliyə gedəcəklər. Qohumluqda bir-birinə tən gələ biləcəklərmi?"

Sitarə nənə öz cavanlığını da xatırladı: "Qayınanam Səkinə xanım deyərdi ki, evdə iki nəfərin biri od olanda, biri su olar. Məni də elə "su" olduğum üçün seçmişdi. Çünki rəhmətlik yoldaşım Fərrux çox ötkəm adam idi... Amma bir ömür boyu abır-həya ilə dolandıq".

Qətiyyən o fikirdə deyilik ki, hamı Sitarə nənə ilə Fərrux baba kimi danışmadan, görüşmədən, bir-birini yaxından tanımadan evlənsin. Axı indi zaman, dövran başqadır. Gənclər yaşadıqları kənddə, şəhərdə qapanıb qalmırlar. Təhsil aldıqları universitetlərdə, işlədikləri müəssisələrdə bir-birinə rast gəlir, sevib-sevilirlər. Amma o da həqiqətdir ki, evlənən gənclərin böyüdükləri mühit bir-birindən çox fərqlənməməli, ailələr kiminlə qohum olduqlarını bilməlidirlər.

Sosial şəbəkələrdə ünsiyyət qurub bir-birinə qiyabi aşiq olan cavanların çoxunun aqibəti də yaxşı məlumdur. Boşluqdan gününü mobil telefonla, planşetlə keçirən belələrinin sevgisi də, qurduğu ailə münasibətləri də dayaz olur və ona görə tez "çökür". Xalq şairi Nəbi Xəzri demişkən, "qiyabi təhsil olar, qiyabi sevgi olmaz".

Lakin bəzən elə də olur ki, bir-birini tanıyan, ailələri yaxın dost olduğundan uşaqlıqdan bənzər mühitdə böyüyən, bir-birini sevən gənclərin də ailəsi dağılır. Qeyd edildiyi kimi, səbəblər müxtəlifdir. Hansısa bir dahinin sözləridir: "Xoşbəxt ailələrin hamısı bir-birinə bənzəyir, bədbəxtlərin isə hərəsi bir cür bədbəxtdir".

### ...Böyüksüz yerdə oturma

Əvvəllər ailələrdə narazılıq, münaqişə yaradan əsas səbəblərdən biri qayınana-gəlin qarşıdurması sayılırdı. Bu münasibətlər bütün zamanlarda aktual olsa da, günümüzdə həmin problem bir qədər arxa plana keçib. Çünki indi qayınanalar müasir düşüncəli, əksər hallarda təhsilli, ziyalı xanımlardır. Bu, təbii ki, onları "gəlin mənim süpürgəmdir" iddiasından uzaqlaşdırır. Bir də axı indi cavan ailələr imkan daxilində qayınana-qayınata ilə bir mənzildə yaşamırlar.

Ayrıca mənzilləri olmadıqda isə gənc ər və xanım bunu özünə dərd etməməlidir. Düşünmək gərəkdir ki, yaşlı valideynlərlə birgə yaşamaq variantının özünün də üstünlükləri var. Onlar gənclərin ən yaxın köməkçisidirlər - bazarlıq etməkdə, yemək hazırlamaqda, ən çox da körpə uşaqlara qayğı göstərməkdə, onların tərbiyəsində... Belə ailələrdə cavanların təhsillərini davam etdirməyə, işdə peşəkarlıqlarını artırmağa daha çox imkanları olur.

Atalar deyib ki, böyüksüz yerdə oturma. Bir çox hallarda valideynlər gənc cütlükləri səhv addımlardan qoruyur, onlara ağıllı məsləhətlər verməklə, düzgün yol göstərməklə yeni yaranan ailənin möhkəmlənməsinə çalışırlar.

Vay o gündən ki, bunun əksinə ola... Gizlətməyin yeri deyil ki, belə üzdəniraq hallar da var. Bir sıra yaşlı ata-analar gənc ailənin həyatına yerli-yersiz müdaxilələr edir. Bu da həm cavanlar, həm də onların hər ikisinin valideynləri arasında münaqişələrə səbəb olur. Vəziyyət o dərəcədə gərginləşir ki, boşanma zərurətə çevrilir.

Valideynlərlə cavanların bir damın altında yaşadığı halda adət-ənənələrimizə, milli-mənəvi dəyərlərimizə uyğun olaraq böyük-kiçik yeri bilinməlidir. Səmimiyyət, qarşılıqlı hörmət, bir-birinə qayğı olmalıdır.

Burada təkcə cavanların deyil, həyatın bərkindən-boşundan çıxmış ata-ananın üzərinə də böyük məsuliyyət düşür. Axı min arzu-kamla oğul, yaxud qız böyüdüb onun toyunu görmək istəyəndə, qucağına nəvə götürməyi arzulayanda heç kəs balasının quracağı "yuva"nın uçmasını ağlına belə gətirməz! Cavan ailənin dağılması isə bütün bu arzuları puç edir. Üstəlik, övlad öz uğursuz həyatı ilə artıq yaşa dolmuş ata-ananın göz dağına çevrilir. Çox vaxt nənə-baba qarşı tərəfdə (ana, yaxud ata yanında) olan nəvəsini heç də həmişə görə bilmir, ondan ötrü burnunun ucu göynəyir.

Məhz bütün bunlara görə böyük həyat təcrübəsinə malik valideynlər ayıq-sayıq olmalı, gənclərə hərtərəfli kömək etməli, övladlarının ailələrinin dağılması qarşısında hər vəchlə bir sipərə çevrilməlidirlər.

### Qeyrət, ləyaqət və halal çörək

Boşanan (əslində, boşanmağa məcbur olan) qadınların çoxu ərinin ailəyə baxmadığını, tənbəllik edib işləmədiyini, nəticədə evin maddi ehtiyaclarını qarşılamadığını söyləyirlər. Pis vərdişlərə qurşanan, sərxoşluq edən və bundan da betər bəlaya düçar olan kişilər də var. Bir sıra ailələrdə qadının kişi tərəfindən mənəvi və fiziki zorakılığa məruz qalması halları da mövcuddur və bu, boşanmaların sayını artıran səbəblərdən biridir.

Bu, Azərbaycan kişisinə heç yaraşmaz! Çünki o, həmişə qurduğu ailə üçün məsuliyyət hiss edib. Ailənin qeyrətini çəkməyin, dolanışığını təmin etməyin onun üzərinə düşdüyünü yaxşı bilib, çörəyini daşdan çıxarıb.

Azərbaycanlı ailə başçısı istər alim olsun, istər sənətkar, istərsə də fəhlə evinin dolanışığını həmişə özü təmin edib. Odur ki, bugünkü gənclər ailə başçısı olmağa əvvəlcədən hazırlaşmalıdırlar. Peşəyə yiyələnməli, sənət qazanmalı, iş yeri tapmalıdırlar. Ailəsini necə saxlayacağını, necə dolandıracağını götür-qoy etməlidirlər. "İş tapmıram, iş yoxdur" deyən heç bir cavan oğlana bəraət qazandırmaq olmaz. İşləyənə həmişə iş, qurub-yaradana hər zaman meydan var! Sadəcə, istək və əzm gərəkdir!

Vəkil Z.Abasov deyir ki, bir sıra hallarda ər onun ailəsinin maddi ehtiyaclarının xanımının valideynləri tərəfindən ödənilməsini tələb edir və belə cütlüklərin nikahı çox uzun sürmür.

Pis vərdişlərə qurşanmağın isə pis nəticə verəcəyi aydın həqiqətdir. Düzgün həyat tərzi keçirməyən kişilərin evindən narazılıq, söz-söhbət, dava-dalaş əskik olmur. Bu da boşanma ilə yekunlaşır ki, heç olmasa uşaqların əsəbləri və tərbiyəsi pozulmasın.

60 ildir həyat yoldaşı Səyyarə xanımla birgə xoşbəxt ömür sürən qocaman yazıçı Əfqan ailə "kodeksi"ni belə izah edir: "Mən kişini və qadını evin divarının çöl və iç tərəflərinə bənzədirəm. Divar hər tərəfdən möhkəm olmalıdır. Kişi evi çölün-bayırın sərt təsirlərindən qorumalı, evin içərisindən muğayat olmalıdır. Qadın isə evin daxili ab-havasının keşiyində dayanmalı, evi uşaqlar üçün isti qucağa çevirməlidir. Evin içindən çölünə, çölündən isə daxilinə zərbə dəyməməlidir".

Bir sözlə, kişi ailəsinin sahibi olmalıdır. Qadın və uşaqlar ona dağ kimi arxalanmalıdır.

### Gender bərabərliyini düzgünmü başa düşürük?

Əgər ailə qadının günahı ucbatından dağılırsa, ər və onun valideynləri adətən gəlinin imicindən şikayətçi olurlar. İmic deyəndə qadının geyim-kecimində, danışığında, oturuşunda-duruşunda sərbəst olması nəzərdə tutulur.

Ata evində ərköyün olan bəzi qızlar sonra ailə qanunlarına tabe olmurlar. Bir ana, ev sahibəsi kimi öz üzərlərinə düşən vəzifəni yerinə yetirə bilmirlər, yaxud sadəcə bunu etmək istəmirlər. Xörək bişirməyə, evin səliqə-sahmanı ilə məşğul olmağa tənbəllik edirlər. Evdarlıqda bilmədiklərini öyrənməyə çalışmırlar. Ekranlardakı seriallardan ayrıla bilmir, saatlarla "WhatsApp" və "Facebook"da "onlayn" olurlar.

Bu zaman beşikdə uşaq ağlayır, ocaqda yağ daşır, işdən yorğun gələn ər çay gözləyir...

Tam məsuliyyətlə deyə bilərik ki, bu, bir sıra evlərdəki real mənzərədir.

Hüquqşünas Z.Abasov başqa bir məsələyə toxunur: "Nikahların pozulmasına kütləvi informasiya vasitələrində gedən bir çox veriliş və yazılar da öz mənfi təsirini göstərir. Məsələn, maddi cəhətdən çox imkanlı olmayan ailələrin yeni nikaha daxil olmuş övladları, xüsusilə xanımlar əziyyət çəkmədən, özlərinə karyera qurmadan tez bir zamanda maddi cəhətdən təmin olunmaq, digər imkanlı qadınların həyat tərzini sürmək istəyirlər. Belə bir təminat olmadıqda KİV-də boşanmış, özlərini maddi cəhətdən təmin etmiş, müstəqil karyera qurmuş xanımlara rast gəldikdə boşanmağı qərara alırlar".

Bəzi qadınlar öz hüquq və vəzifələrini yaxşı bilmədikləri üçün xoşbəxt də ola bilmirlər, ailələrini dağıdırlar. Onlar ailəni öz hökmləri ilə idarə etmək, iddialarını "yeritmək", lazımlı-lazımsız bütün istəklərini gerçəkləşdirmək istəyirlər.

Budurmu gender bərabərliyi? Əsla yox! Qısası, ailədə kişinin və qadının hərəsinin öz yeri var. Xatırladaq ki, söhbət Azərbaycan ailəsindən gedir!

Müasirləşmək heç də mentaliteti, əsrlərlə bərqərar olmuş ailə ənənələrini, mənəvi dəyərləri unutmaq demək deyil. Və bu dəyərlər möhtərəm Prezidentimiz İlham Əliyevin sözlərində öz əksini necə də aydın və gözəl tapıb! Bakı Dövlət Universitetinin 100 illik yubileyindəki çıxışında dövlət başçısı belə deyib: "Biz ənənəvi dəyərlər üzərində dövlət qururuq, böyük-kiçik var. Biz bunu qorumalıyıq, gənclər də məni eşitsinlər, daim böyük-kiçik məsələsinə fikir versinlər. İndi bəzi ölkələrdə buna fikir verilmir. Qadınlar və kişilər arasında artıq fərq qoyulmur. Amma biz ənənəvi cəmiyyətdə yaşayırıq və yaşamalıyıq. Qadınlara hörmət etməliyik, biz onları qorumalıyıq, onları müdafiə etməliyik. Onlar bizi yox, biz onları. Gender bərabərliyi var, biz də bunu qəbul edirik. Amma biz ənənəvi düşüncədən kənarda yaşaya bilmərik. Yaşlılara hörmət olunmalıdır. İndi bəziləri istəyirlər ki, bizim lüğətimizdən "ağsaqqal", "ağbirçək" sözləri çıxsın, necə ki, bəzi ölkələrdə. Onlara baxanda adam dəhşətə gəlir. Sonra da bizə deyirlər ki, gəlin bizə inteqrasiya edin. Hələ Avropada o iqtisadi böhran baş alıb gedəndə dedim ki, biz hara inteqrasiya etməliyik, böhrana?.. Haraya inteqrasiya etməliyik, qadınla kişi arasında fərq görməyənə? Mən artıq daha dərinə getmək istəmirəm. Biz qətiyyən oraya inteqrasiya etməyəcəyik".

### Çanaq körpə başında çatlayır

Dünən bir-birini sevən, biri ağsaqqalları qız qapısına elçi göndərən, digəri isə gələnlərə "hə" deyilməsini səbirsizliklə gözləyən iki nəfərin - kişi və qadının bu gün düşmənə çevrilməsi, həyatlarının "zəhərlənməsi" bir yana qalsın, ortadakı uşaq zərbə alır. Bu zərbənin ağrısı, ağırlığı onun həyatında və qəlbində ömürlük qalır. Həm də dağılan ailələrdə bəzən bir yox, iki, hətta daha çox uşaq olur.

O uşaqların günahı nədir ki, yarımçıq ailələrdə böyüsünlər, valideynlərinin birindən (əksər halda atadan) ayrı düşsün, onun qayğı və nəvazişindən məhrum olsunlar?! Axı belə uşaqların qəlbində nisgil yuva salır, onlar xoşbəxt ailələrdə böyüyən yaşıdlarına həsəd aparır, bəzən hətta əsəbi olurlar. Təbii ki, ailələrin uğursuzluğu övladların bir şəxsiyyət və vətəndaş kimi formalaşmasına da öz mənfi təsirini göstərir.

Niyə uşaq hər gün ata hədiyyəsi deyil, onun ayda bir dəfə göndərdiyi alimenti gözləməlidir? Əlbəttə, göndərsə. Çünki indi bunu da etməyən, yalnız müvafiq orqanların xəbərdarlıqlarından sonra aliment ödəyən, uşağa pul göndərməmək üçün hətta gizlənən "ata"lar kifayət qədərdir.

Uşaq tam ailədə, ata-ana dövrəsində böyüməlidir. Bunun üçün hamı çalışmalıdır. Cavan cütlüklərin dünyagörmüş valideynləri, qohumlar, dostlar, qonşular, bütün cəmiyyət. Ən başlıcası isə bunu o uşağı dünyaya bəxş edən valideynlər istəməlidir. Onlar bir-birinə güzəştə, kompromisə getməli, qarşılıqlı anlaşmaya can atmalı, həyatda rast gəlinən çətinlikləri dəf etmək üçün böyük səbir və möhkəm iradə sahibi olmalıdırlar.

Təbii ki, gənc ailənin hərtərəfli çətinlikləri çox olur. Xarakterlərinin toqquşması, bir sıra hallarda maddiyyatın məhdudluğu, evin darısqallığı, yaxud heç olmaması və s. Bu problemlər zaman-zaman həll olunur. Bir şərtlə ki, kişi və qadın irəliyə bir istiqamətdə baxsınlar, birgə düşünsün, birgə çalışsınlar.

Heç bir körpə dünyaya gəldiyi üçün günahkar deyil! Onu bədbəxt etmək isə Allah və insanlıq qarşısında böyük günahdır!

Bir-birindən ayrılmağı qət edən ata-analar, belə ağır günaha batmayın! Qoy bu məsum, zərif məxluqlar aranızda ən möhkəm körpüyə çevrilsin! Xalqımızın inancına görə, evə xeyir-bərəkət, ruzi də uşaqların ayağına gəlir. Onların sevinci, gülüşü, hər xoş sözü, hər məzəli hərəkəti başdan-başa sevgidir. Bu müqəddəs sevgini, bu böyük səadəti əldən verməyin!

*Flora SADIQLI, "Azərbaycan"*

# İnstitutun fəaliyyəti və gələcək perspektivləri müzakirə olunub



Azərbaycan İlahiyyat İnstitutunda (Aİİ) qarşıda duran hədəf və məqsədlərlə bağlı növbəti iclas keçirilib. İclasda fevral ayının yekunları, ali təhsil müəssisəsinin ümumi fəaliyyəti və gələcək perspektivləri müzakirə olunub.

Aİİ rektoru Ceyhun Məmmədov ölkəmizdə təhsilə, milli-mənəvi dəyərlərimizin qorunmasına göstərilən diqqət və qayğıdan bəhs edib. İnstitut rəhbəri vurğulayıb ki, milli-mənəvi dəyərlərimizin qorunmasında və gələcək nəsillərə çatdırılmasında müstəsna xidmətləri olmuş Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlət-din siyasətini hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir.

Gənc nəslin sağlam ruhda yetişməsinin, dünya standartları ilə ayaqlaşan yüksək təhsillə təmin edilməsinin dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu bildirən C.Məmmədov Aİİ-nin məqsəd və vəzifələrindən, hədəflərindən bəhs edib. O, tədris prosesi, müəllimlərin fəaliyyəti, kitabların nəşri, elmi məqalələrin çap olunması istiqamətində görülən işlər, həmçinin nəzərdə tutulmuş layihələr haqqında fikirlərini bölüşüb.

Rektor xarici universitetlərlə əlaqələrin qurulması, ikili diplom, Erasmus+, Mövlanə proqramları ilə tələbələrin xaricdə təhsil imkanları barədə danışaraq, bu yöndə görülən işlərin peşəkar mütəxəssis hazırlama baxımından məqsədyönlü fəaliyyət olduğunu nəzərə çatdırıb.

Zəngin dünyagörüşünə və yüksək mədəniyyətə malik, dərin bilikli, vətənpərvər mütəxəssislərin yetişdirilməsinin institutun əsas vəzifələrindən olduğunu nəzərə çarpdıran C.Məmmədov bu məqsədlərə nail olmaq üçün Aİİ-nin bütün gücünü və potensialını səfərbər etdiyini, ona göstərilən yüksək inamı və etimadı doğrultmaq üçün bütün imkanları ilə çalışdığını bildirib.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# Referendum Ermənistanda yeni qarşıdurmaya yol aça bilər

## Sosial vəziyyətin getdikcə ağırlaşdığı işğalçı ölkədə intihar halları artıb

Ermənistanın baş naziri Nikol Paşinyan Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyanın açıq şəkildə keçmiş hərbi xuntaya bağlı olduğunu vurğulayaraq inqilabdan sonrakı dövrdə onun ədalətli və qanuni qərarlar verməyə qadir olmadığını bildirmişdi.

Lakin baş nazir Tovmasyanı qanuni yolla vəzifəsindən uzaqlaşdırmağı qarşısına məqsəd qoysa da, buna nail ola bilmədiyindən aprelin 5-də referendum keçirməklə istəyini reallaşdırmaq niyyətindədir.

Maraqlıdır ki, Paşinyanın yaxın tərəfdaşları baş nazirin bu mübarizədə təkcə qalib deyil, həm də məğlub olmağa da hazırlaşdığını söyləyirlər. Əgər referendumun yekununda Paşinyan məğlub duruma düşərsə, o, ölkədə öz hakimiyyətini xalq iradəsi qarşısında itirməkdən qorxmadığını və bununla da əvvəlki Ermənistan rəhbərlərindən fərqliliyini sübut etmiş olacaq.

"Lragir" qəzeti yazır ki, bu durum Paşinyanın növbəti şoularından biri kimi qəbul edilməlidir. Yeri gəlmişkən bildirək ki, referendumun keçirilməsi üçün 3,4 milyard dram (7,1 milyon dollar) vəsait ayrılıb. Yalavac bir ölkə üçün bu, böyük məbləğdir. Müqayisə üçün bildirək ki, Ermənistanda "məxməri" inqilabdan dərhal sonra, yəni 2018-ci ilin dekabrında keçirilən növbədənkənar parlament seçkisinə 3 milyard dram (6,3 milyon dollara yaxın) vəsait xərclənmişdi.

Referenduma xərclənəcək vəsait məsələsi erməni siyasi ekspertlər tərəfindən birmənalı qarşılanmır. Məsələn, "Ayastan" fondunun keçmiş rəhbəri Ara Vardanyan referenduma ayrılmış 3,4 milyard drama Ermənistanda 24 yeni məktəb binası inşa etməklə yanaşı, fəlakət bölgəsində 350 ailəni mənzillə təmin etməyin mümkün olduğunu bildirib. Gümrü bölgəsində yerləşən internat məktəbi direktorlarından birinin dediklərini nümunə kimi göstərən Vardanyan orada 30 ildən çox vaxt keçməsinə baxmayaraq, hələ də çoxlu sayda evsizin olduğunu bildirib: "Bütün bunlara biganə olan Paşinyan və "Vətəndaş müqaviləsi" partiyası referendum üçün pultoplama kampaniyasında 205 milyon 560 min dram yığıb".

Xatırladaq ki, ötən ilin oktyabrında Ermənistan parlamenti "Mənim addımım" iqtidar fraksiyasının təşəbbüsü ilə sədrin səlahiyyətlərinin dayandırılması məsələsi ilə bağlı Konstitusiya Məhkəməsinə müraciət etmişdi. Amma Konstitusiya Məhkəməsi parlamentin müraciətinə baxmaqdan imtina etmiş və bunu "müəyyən edilmiş reqlamentə" əməl olunmaması ilə əsaslandırmışdı. Bundan sonra iqtidar partiyası Konstitusiya Məhkəməsinin üzvləri üçün "vaxtından əvvəl pensiya sistemi haqda" qanun hazırlayıb. Bu qanuna əsasən, Konstitusiya Məhkəməsinin sədri və üzvlərinə istefaya getmələri üçün 2020-ci il dekabrın 31-nə qədər müddət verilir, əvəzində onlara aldıqları əməkhaqqı həcmində (2 min ABŞ dollarından çox) ömürlük pensiya təklif olunur. Parlament müxalifəti isə bu qanunu "qanuni rüşvət" adlandırıb və əleyhinə səs verib. İqtidarda olan çoxluq qanunu qəbul etsə də, hakimlərdən heç biri pensiyaya çıxmayıb.

Ermənistanda mövcud sosial-iqtisadi durum bu ölkədə əhalinin yaşayış səviyyəsinin daha böyük sürətlə pisləşməkdə olduğunu göstərir. "Qolos Armeniya" saytı yazır ki, istənilən ölkədə sənayenin bərpası, ilk olaraq, ölkəyə qoyulan investisiya və ayrılan kreditlər hesabına təşəkkül tapır: "İndi isə gəlin baxaq - inqilabdan sonra Ermənistana investisiya qoyan hər hansı bir investorla rastlaşan olubmu? Əksinə, inqilaba qədər ölkədə mövcud olan azsaylı investorlar da yeni erməni hakimiyyətinə olan inamsızlıq üzündən Ermənistanı tərk ediblər. Deməli, Ermənistanın "yüksəlişdə" olan sənaye istehsalı investorlar tərəfindən aşağı səviyyədə qiymətləndirilib".

Qeyd olunur ki, bu halda ümid ancaq bank kreditlərinə qalır ki, burada da bank rəhbərləri inamsızlıq ucbatından "Ermənistan iqtisadiyyatı"nın real sektoruna daxil olmaqdan çəkinirlər. Təsadüfi deyil ki, Ermənistanda baş verən "məxməri inqilab"dan sonra ölkə sənayesinə kredit qoyuluşları 33 milyon dollar azalıb.

Sosial vəziyyətin getdikcə ağırlaşdığı Ermənistanda intihar halları da artıb. Ermənistan Statistika Komitəsinin məlumatına görə, 2017-ci ildə Ermənistanda intihar və intihara cəhd hadisələri 562, 2018-ci ildə 606, 2019-cu ildə isə 613 təşkil edib. İntihar edənlər arasında işsizlər böyük əksəriyyət təşkil edirlər. Mütəxəssislərin sözlərinə görə, insanlar pis sosial şəraitlər, qorxular, dini ideologiya səbəbindən həyatlarına son verirlər.

Ermənistanda intiharlar cəzaçəkmə müəssisələri və silahlı qüvvələrdə də qeydə alınır. Təkcə Ermənistan Silahlı Qüvvələrində cari il ərzində 13 ölüm hadisəsi qeydə alınıb ki, bunlardan da 4-ü intihar olub. Bütün bunlar bir daha Ermənistanda gərgin vəziyyətin davam edəcəyini aydın şəkildə göstərir.

*Elçin CƏFƏROV, "Azərbaycan"*

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 24 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Ayqeovit kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Bala Cəfərli kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Mərzili, Füzuli rayonunun Qərvənd, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycanda koronavirusa qarşı mübarizə gücləndirilir

*Əvvəli 1-ci səh.*

## ÜST İrana tibbi yardım edib

ÜST-ün baş direktoru Tedros Adanom Gebreyesus məlumat verib ki, qurumun İrandakı bölməsinin əməkdaşından götürülən analizin cavabı müsbət olub və yeni növ COVID-19 koronavirusuna yoluxduğu üzə çıxıb. T.Gebreyesusun sözlərinə görə, təşkilatın əməkdaşı xəstəliyi yüngül formada keçirir.

İranda 23 deputatda da koronavirus testi müsbət çıxıb. Ölkənin səhiyyə nazirinin müavini İrəç Hərirçi, vitse-prezident Məsumə Ebtekar və sabiq ədliyyə naziri Mustafa Purməhəmmədi də koronavirusa yoluxub. İranın Vatikandakı keçmiş səfiri Hadi Xosrovşahi və İran Məsləhət Şurasının üzvü Seyid Məhəmməd Mirməhəmmədi isə koronavirusdan ölüb.

Ötən gün İran koronavirusla mübarizə üçün ÜST-dən ilk tibbi yardım alıb. Tibbi yardım Dubaydan Tehrana hərbi təyyarə ilə gətirilib.

Koronavirusla mübarizə üçün gətirilən yardım, əsasən, 100 min nəfər üçün nəzərdə tutulan 8 ton dərmandan, diaqnostik cihazlardan, tibbi və laborator avadanlıqlardan ibarət olub. Bundan başqa, ÜST İrana həkimlər, laboratoriya ekspertləri və epidemioloqların daxil olduğu altı tibbi heyət göndərib.

Son məlumatlara əsasən, İranda koronavirusdan daha 11 nəfər ölüb, bununla da bu ölkədə virusdan ölənlərin sayı 77-yə, xəstəliyə yoluxanların sayı isə 2336-ya çatıb.

## Tokio-2020 Yay Olimpiya Oyunları təxirə salına bilər

Koronavirus üzündən Tokio-2020 Yay Olimpiya Oyunları təxirə salına bilər. Məlumatı Olimpiadanın təşkilinə cavabdeh nazir Seyko Haşimito açıqlayıb. Sabiq velosipedçi və konkisürən bildirib ki, Yaponiya ilə Beynəlxalq Olimpiya Komitəsi arasında razılıq yarışın təxirə salınmasına imkan verir. Olimpiya Oyunları iyulun 24-dən avqustun 9-dək keçirilməlidir. Lakin yarış öncəsi baş tutmalı olan test yarışları ləğv edilib. Buna koronavirusun Yaponiyada da yayılması səbəb olub.

## Azərbaycanda təxirəsalınmaz tədbirlər davam etdirilir

Koronavirus (COVID - 19) infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə təxirəsalınmaz tədbirlər davam etdirilir.

Ölkəmizdə koronavirusla bağlı məsələ ilk gündən diqqət mərkəzindədir. Nazirlər Kabinetinin sərəncamı ilə 2020-ci ilin 30 yanvar tarixində "Azərbaycan Respublikasında yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı" təsdiq edilib və nəzərdə tutulmuş tədbirlər həyata keçirilir. Qeyd olunan xəstəliyin yayılma coğrafiyasının geniş miqyas aldığını nəzərə alan Nazirlər Kabineti daha əhatəli Tədbirlər Planı təsdiqləyib.

Koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət orqanlarının və qurumlarının rəhbər şəxslərindən ibarət qərargah yaradılıb.

Qabaqlayıcı tədbirlərin görülməsi və Azərbaycan Respublikasının bütün ərazilərində monitorinqin aparılması üçün aidiyyəti sahə mütəxəssislərindən ibarət ekspert qrupları da təşkil olunub. Eyni zamanda əhalinin məlumatlandırılması və əsassız dezinformasiyaların qarşısının alınması məqsədilə qərargahın +994 12 492 41 61, +994 12 492 75 54, +994 12 505 03 30, + 994 12 505 13 33 nömrəli qaynar xətləri fəaliyyət göstərir.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan bildirilib ki, beynəlxalq təcrübəyə uyğun olaraq koronavirus infeksiyalarının laborator diaqnostikası üçün xüsusi dövlət tibb müəssisələri müəyyənləşdirilib. Xüsusi ayrılmış tibb müəssisələrindəki laboratoriyalar ÜST-ün müəyyən etdiyi bütün biotəhlükəsizlik və digər keyfiyyət standartlarına tam uyğun qurulub, analizlər yüksək ixtisaslı kadrlar tərəfindən icra olunur, test nəticələrinin düzgünlüyünə xüsusi proqramlarla nəzarət edilir.

Məlumatda qeyd edilir ki, digər dövlət və qeyri-dövlət tibb müəssisələrində koronavirusun təyini məqsədilə laborator analizlərin aparılması qəti qadağandır: "Bu tələbi pozan bütün tibb müəssisələrinə qarşı qanunvericiliyə uyğun olaraq müvafiq tədbirlər görüləcək. Son vaxtlar vətəndaşlarımızda koronavirus infeksiyalarının laborator diaqnostikasına dair bəzi suallar yaranıb. Nazirlər Kabineti yanında Operativ Qərargah bildirir ki, koronavirus infeksiyalarının vaxtında aşkar olunması üçün hazırda xəstəliyin geniş yayıldığı bölgədən gələn, yaxud həmin bölgədən gələnlə, eləcə də xəstəliyi təsdiq olunmuş şəxslə təmasda olan şəxslərdən analiz nümunələrinin götürülməsi vacibdir. Hazırda xüsusi ayrılmış dövlət tibb müəssisələrindəki laboratoriyalarda ÜST-ün protokoluna əsasən sözügedən şəxslərin tibbi müayinələri dövlət büdcəsi hesabına həyata keçirilir.

Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən koronavirus (COVID - 19) infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə təxirəsalınmaz tədbirlər davam etdirilir. Bakı şəhərində bu xəstəliyə yoluxma hallarına yol verilməməsi və onun qarşısının alınması, bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi məqsədilə paytaxtdakı yaşayış binalarında, binalardakı ümumi istifadə yerlərində, giriş blokları və pilləkən marşlarında, sakinlərin daha çox istifadə etdiyi yerlərdən olan lift kabinaları və onun ətrafı, məişət tullantılarının atıldığı konteyner meydançalarında, Bakı Şəhər İcra Hakimiyyətinin tabeçiliyində olan məktəbəqədər təhsil müəssisələrində, digər yerlərdə tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlər aparılır.

## Bütün mülki aviasiya obyektlərinin dezinfeksiyası həyata keçirilir

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti (AZAL) COVID-19 koronavirus infeksiyasının yayılmasının qarşısını almaq üçün bütün mülki aviasiya obyektlərinin dezinfeksiyasını həyata keçirir. AZAL-dan verilən məlumata görə, AZAL və "Buta Airways" aviaşirkətləri tərəfindən uçuşlardan sonra hava gəmilərinin xüsusi dezinfeksiyaedici mayelər ilə dezinfeksiyası həyata keçirilir; AZAL və "Buta Airways" aviaşirkətlərinin bütün təyyarələri universal profilaktik dəstlər, qoruyucu maskalar və dezinfeksiyaedici vasitələrlə təchiz edilmişdir; hava gəmilərində HEPA havalandırma filtrləri vaxtaşırı dəyişdirilir; hava gəmisində koronavirus infeksiyasına yoluxmaqda şübhəli bilinən xəstə aşkar edildiyi zaman tədbirlərin görülməsi üçün uçuş heyəti ilə treninqlər aparılıb.

Bundan əlavə, Azərbaycanın beynəlxalq hava limanlarında sutka ərzində dörd dəfə qeydiyyat zonalarında, tualetlərdə, sərnişinlər üçün nəzərdə tutulmuş otaqlarda bütün səthlərin, habelə sərnişinlərə və onların baqajlarına xidmət göstərən işçi heyətinin geyim və ayaqqabılarının dezinfeksiyası təmin edilir; gələn bütün sərnişinlər bədən hərarətini ölçən xüsusi cihaz vasitəsilə 3 səviyyəli yoxlamadan keçir; koronavirus infeksiyasına yoluxması şübhəli bilinən sərnişinin olduğu hava gəmisi üçün karantin meydançası ayrılıb. Belə hava gəmisinə xidmət göstərmək üçün istifadə olunmuş xüsusi texnika dezinfeksiyaedici vasitələrlə xüsusi qaydada emaletmə prosedurundan keçir; yüksək bədən hərarəti aşkar edilən şəxslərin dərhal təcrid edilməsi üçün aeroportda xüsusi otaq ayrılmışdır; koronavirus infeksiyasına yoluxmaqda şübhəli bilinən şəxslərin ixtisaslaşdırılmış tibb müəssisəsinə çatdırılması üçün hava limanı ərazisində təcili tibbi yardım maşınları daim növbətçilik edir.

Heydər Əliyev Beynəlxalq Aeroportunda operativ qərargah yaradılıb və reyslərin uçuş cədvəlindəki dəyişikliklər və digər aviasiya prosedurları ilə bağlı bütün məsələlərlə əlaqədar müraciət edə biləcəyiniz, 24 saat fəaliyyət göstərən qaynar xətt fəaliyyət göstərir: (+994 12) 497 85 89.



## Koronavirusun iqtisadiyyatımıza təsirini azaltmaq üçün tədbirlər görülür

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı söyləyib ki, hökumət koronovirus böhranının təsirlərini azaltmaq üçün bütün zəruri tədbirləri görür. Bunun üçün cənab Prezidentin göstərişi ilə Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılıb.

O qeyd edib ki, Azərbaycan dövləti də bu qlobal şokun təsirini azaltmağa, daha az itki verməklə dövrü geridə qoymağa çalışır: "Bunun üçün vacib şərtlərdən biri də virusun özündən də sürətlə yayılan informasiya ilə manipulyasiya etməməkdir. Çünki panika bəzən problemin miqyasını dəfələrlə artırır. Xatırladım ki, dünyada Çindən sonra ən çox virusa yoluxma halı olan üç ölkədən biri - İranla sərhədimiz 765 km-dir. Xüsusən də nəzərə almaq lazımdır ki, İranda da ən çox yoluxma halı olan vilayətlərdən biri - Gilan ostanı Azərbaycanla sərhəddədir. Bu halda Azərbaycan insanlarının sağlamlığını qorumaq və iqtisadiyyata olan mənfi təsirləri azaltmaq üçün dövlətlə bərabər hamı birlikdə çalışmalıdır. Xüsusən də, bu aralarda kəmfürsətçillik etmək daha çox qəbahətdir. Məsələn, Çinin və dünyanın aparıcı biznesləri sosial məsuliyyətini başa düşərək problemin həlli üçün dəstək tədbirləri həyata keçirirlər. İnanırıq ki, Azərbaycan dövləti qlobal miqyasda yaranmış bu sınaqdan da uğurla çıxacaq".

## Valideynlərin təşvişinə ehtiyac yoxdur...

Azərbaycanda fəaliyyət göstərən bütün təhsil müəssisələrində tibbi-profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlərin intensivləşdirilməsi məqsədilə 2020-ci il mart ayının 3-dən 9-dək (ilk tədris günü mart ayının 10-u müəyyən edilir) bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılmasına və bununla bağlı bütün tədbirlərin təxirə salınmasına dair qərar qəbul olunub.

Son məlumata əsasən, artıq Bakı şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 160 ümumi təhsil müəssisəsində koronavirusa qarşı dezinfeksiya işləri aparılıb. Digər təhsil müəssisələrində dezinfeksiya işlərinin aparılması davam etdirilir.

Bakı şəhər Dezinfeksiya Mərkəzinin həkimi Elvin Məmmədov məlumat verib ki, koronavirus havada uzun müddət qalıcı olmasa da, səthlərdə onun 9-12 saatadək qalıcılıq qabiliyyəti var. Təşvişə ehtiyac yoxdur, koronavirusun digər viruslara nisbətən qalıcılıq müddəti azdır: "Bu istiqamətdə təxirəsalınmaz əks-epidemik dezinfeksiya işləri təcili aparılır. Burada Türkiyə və İspaniya istehsalı olan yüksək keyfiyyətli dərman preparatlarından, xloramindən daim istifadə olunur. Səthlərdən asılı olaraq dərman məhsulları dəyişə bilir. Bəzən valideynlər təşvişə düşürlər. Bu, o demək deyil ki, əks-epidemik tədbirlər hər hansı epidemik göstəriş olanda həyata keçirilir. Təhsil Nazirliyi ilə qarşılıqlı əməkdaşlıq nəticəsində demək olar ki, yanvar ayının əvvəlindən hər yerdə bu tədbirlər görülür".

## İçərişəhərdə muzeylərdə daim dezinfeksiya işləri aparılır

İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruq İdarəsinin aparat rəhbəri Riyad Qasımov deyib ki, dövlət tərəfindən virusun yayılmasının qarşısının alınması istiqamətində müvafiq tədbirlər həyata keçirilir, İçərişəhərdə muzeylərdə daim dezinfeksiya işləri aparılır: "Novruz bayramı zamanı İçərişəhərdə mədəni-kütləvi tədbirlərin keçirilməsi nəzərdə tutulur. Hələki bu tədbirlərə məhdudiyyət qoyulmayıb. Novruz bayramı zamanı İçərişəhərə turistlər gəlir, xüsusilə İrandan çoxlu sayda gələn insanlar olur. Ümid edirik ki, dövlət tərəfindən görülən tədbirlər nəticəsində problem yaşanmayacaq".

## İmtahanlar təxirə salınıb

Koronavirus (COVID - 19) infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə həyata keçirilən təxirəsalınmaz tədbirlərə uyğun olaraq yoluxma hallarının qarşısının alınması, bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi məqsədilə bəzi planlaşdırılan tədbirlər təxirə salınıb.

Dövlət İmtahan Mərkəzindən verilən məlumata görə, 9 mart 2020-ci il tarixində keçirilməsi nəzərdə tutulan 9-cu sinif buraxılış imtahanı təxirə salınıb.

Qeyd edək ki, imtahan Gəncə, Lənkəran, Şəki, Sumqayıt şəhərlərində, Abşeron, Ağdam, Ağstafa, Ağsu, Bərdə, Biləsuvar, Göygöl, İmişli, Kürdəmir, Lerik, Oğuz, Qazax, Qəbələ, Saatlı, Sabirabad, Samux, Şabran, Şamaxı, Tərtər, Tovuz, Xaçmaz, Yevlax, Zərdab rayonları üzrə keçirilməli idi.

Bu istiqamət üzrə imtahanın vaxtı imtahanın keçiriləcəyi tarixdən 1 həftə öncə elan olunacaq.

Eyni zamanda 9 mart 2020-ci il tarixində keçirilməsi nəzərdə tutulan Dövlət Sərhəd Xidməti Xüsusi Məktəbin V sinfinə qəbul imtahanı təxirə salınıb. İmtahanın vaxtı imtahanın keçiriləcəyi tarixdən 1 həftə öncə elan olunacaq.

## İdman tədbirləri dayandırılıb

Koronavirus infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə idman tədbirləri də ertələnib.

Futbol üzrə Azərbaycan çempionatının I divizionunun martın 6-da keçiriləcək "Turan Tovuz" - MOİK oyunu təxirə salınıb. Buna paytaxt təmsilçisinin Peşəkar Futbol Liqasına (PFL) müraciəti səbəb olub.

Müdafiə Nazirinin əmrinə əsasən Azərbaycan Ordusunun hərbi qulluqçularının, mülki işçilərinin infeksion xəstəliklərə yoluxma hallarının qarşısının alınması məqsədilə onların xidmət etdikləri və çalışdıqları hərbi hissə və müəssisələrdən ezamiyyətə getmələri müvəqqəti dayandırılıb.

## Görüşün vaxtı və yeri yaxın günlərdə dəqiqləşəcək

Basketbol üzrə Azərbaycan çempionatının oyunları təxirə salınıb. Azərbaycan Basketbol Federasiyasının qərarına əsasən, kişilər arasında Superliqanın ötən gün və martın 5-də keçirilməli olan XXI turunun matçları təxirə salınıb. Qarşılaşmaların təşkili vaxtı hələ dəqiqləşdirilməyib. Həmçinin martın 4-də Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında keçirilməsi nəzərdə tutulan Jr.MBA-nın püşkatması da koronavirus səbəbindən baş tutmayacaq.

AFFA-nın təşkilatçılığı ilə keçirilən U-9, U-10, U-11, U-12, U-13, U-14, U-15, U-16, U-17 və Gənclər liqalarının, U-11, U-13 və U-16 qızlar liqalarının, həmçinin "Coca-Cola Məktəbli kuboku"nun iştirakçılarının, müvafiq olaraq, orta məktəb şagirdləri və tələbələr olması nəzərə alınaraq həmin turnirlərin oyunları 2020-ci il martın 10-dək təxirə salınıb.

Tədris müəssisələrinin bağlanması, tədbirlərin təxirə salınması qərarlarının mahiyyətini başa düşməyin vacib olduğunu söyləyən Karantin xəstəxanasının baş direktoru Emin Hüseyn əhaliyə tövsiyə edib ki, vətəndaşlar kütləvi yerlərdən uzaq dursunlar: "Mümkün qədər ev şəraitində olsunlar. Geniş kütləvi yerlərə getməsinlər. Qərarın mahiyyəti ondan ibarətdir ki, insanlar bir-birləriylə az təmasda olsunlar ki, ehtimal edilən infeksiya yayılmasın. Əhalini təşvişə düşməməyə çağırıram. Bu, sadəcə qabaqlayıcı tədbirdir".

## Həkim müşahidəsində olanların vəziyyəti normaldır

Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin mətbuat xidmətlərinin birgə məlumatına görə, Kliniki Tibbi Mərkəzin yoluxucu xəstəliklər şöbəsinə həkim müşahidəsi üçün daha 4 nəfər yerləşdirilib: "Həkim müşahidəsinə götürülənlər İran İslam Respublikası vətəndaşlarıdırlar. 19-21 yaş arası olan gənclər Bakıya bir neçə gün əvvəl gəliblər. Bədənlərinin hərarəti normadan yüksək olduğu üçün xəstəxanaya müraciət ediblər. Kliniki Tibbi Mərkəzdən Səhiyyə Nazirliyinə verilən məlumata görə, hazırda yoluxucu xəstəliklər şöbəsində 6 nəfər var. Onlardan biri Azərbaycan, digərləri isə İran İslam Respublikası vətəndaşlarıdır. Həkim müşahidəsinə götürülənlərdən 3-nün vəziyyəti normaldır, səhhətlərində hər hansı bir problem aşkarlanmayıb. Digər 3 nəfərdə zökəm əlamətləri var. Həkim müşahidələri davam edir.

Qeyd edək ki, yuxarıda qeyd edilənlər İranın xəstəlik qeydə alınmayan ərazisindən gəliblər. Xəstə insanlarla ünsiyyətdə olmayıblar.

Səhiyyə Nazirliyi ölkə vətəndaşlarından qeyd edilən məsələyə həssas yanaşılmasını, süni ajiotaj yaratmaq məqsədilə sosial şəbəkələr vasitəsilə yayılan yalan məlumatlara etibar etməməyi xahiş edir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında Operativ Qərargahın məlumatına görə, ölkəmizdə 3 nəfər koronavirusa yoluxub. Hazırda hər 3 şəxsin vəziyyəti sabitdir. Azərbaycanda koronavirus aşkarlanan ilk şəxs 1997-ci il təvəllüdlü Rusiya vətəndaşıdır. Digər şəxs 17 iyul 1973-cü il təvəllüdlü Azərbaycan vətəndaşıdır. Xəstəxanaya fevralın 26-da daxil olan həmin şəxs 1 gün Tehranda, 3 gün isə Təbrizdə səfərdə olub. 29 aprel 1998-ci il təvəllüdlü üçüncü koronavirus aşkarlanan şəxs isə fevralın 26-da xəstəxanaya yerləşdirilib. O, Qum şəhərindən ölkəmizə gəlib. TƏBİB-in Xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva bildirib ki, hazırda koronavirus olan həmin 3 xəstənin vəziyyəti stabildir, müşahidə altında saxlanılırlar.

İnfeksion xəstəliklər və klinik mikrobiologiya uzmanı Vasif Əliyev bildirir ki, xəstəlik 2-14 gün davam edən inkubasiya dövründən sonra ani başlayan yüksək hərarət (39 dərəcə), öskürək və nəfəs almada çətinlik çəkməklə özünü büruzə verir. Bəzi xəstələrdə boğaz ağrısı və burun axıntısı da baş verir. Xəstəlik əsasən orta-ağır bir klinik seyr göstərir. Ağır formada xəstələnən və ölən insanların böyük qismi 65 yaşdan yuxarı, xroniki xəstəlikləri (ağciyər xəstəlikləri, orqan çatışmazlıqları, onkoloji xəstəliklər, diabet, immun sistemi zəiflədən xəstəliklər) olan insanları əhatə edir. Gənc və sağlam insanlarda xəstəlik nisbətən daha yüngül formada seyr olunur: "Yeni koronavirusun digər koronaviruslar kimi tənəffüs yolu ilə yoluxduğu düşünülür. Xəstə insanlardan öskürək, asqırma, gülmə, danışma zamanı ətrafa yayılan virusu daşıyan damlacıqlar, sağlam insanların selikli qişalarına təmas edərək bu insanların xəstələnməsinə səbəb olur. Xəstəliyin bu formada insandan insana yoluxması üçün yaxın təmas (1 metrdən yaxın) olmalıdır".

Həkim bildirir ki, xəstəlikdən qorunmaq üçün hər hansı peyvənd yoxdur, bu səbəblə qorunmada hələlik ən effektiv yol virusla (xəstə insanlarla) təmasdan qaçmaqdır. Tənəffüs yolu infeksionuna səbəb olan bir çox virusun (qrip, zökəm virusları və s.) insanların arasında yayılmaqda olduğu qış aylarında sadəcə, 2019-nCoV-dan deyil, digər bütün tənəffüs yolu xəstəliklərinə səbəb ola biləcək viruslardan qorunmaq üçün əl təmizliyinə diqqət edilməsi, təmiz olmayan əllərin göz, ağız və buruna təmas olunmaması çox vacibdir: "Hələlik koronaviruslara təsir göstərdiyi isbatlanmış hər hansı bir dərman da yoxdur. Bu səbəbdən xəstələrə şikayətlərini azaldacaq və əgər orqan zədələnməsi baş veribsə, zədələnmiş orqanın funksiyasının bərpasını dəstəkləyən müalicələr verilir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***


## "Bakı Metropoliteni" QSC-nin "B-3" stansiyasının sahələrində döşəmənin epoksid döşəmə örtüyü ilə rənglənməsi işlərinin satın alınması üzrə

***açıq tender elan edir***

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/**- dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT-1 "Bakı Metropoliteni" QSC-nin "B-3" stansiyasının sahələrində döşəmənin epoksid döşəmə örtüyü ilə rənglənməsi işlərinin satın alınması**

İştirak haqqı - 300 manat

**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN):**
**AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **01 aprel 2020-ci il saat 16:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **09 aprel 2020-ci il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **10 aprel 2020-ci il saat 16:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti boya qatqılarının satın alınması məqsədilə

*müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla "Tender" bölməsindən müsabiqə ilə bağlı ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2020-ci il martın 19-u saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

**Ünvan: Bakı, Heydər Əliyev prospekti, 152, "Çinar plaza" Biznes Mərkəzi, 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263**

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) aşağıdakı LOT-lar üzrə açıq tender üsulu ilə elektron satınalma (eTender) keçirir.

1. Cisco IT avadanlıqlarına (SMARTNET) istehsalçı zəmanətlərinin 1 (bir) il müddətinə uzadılması xidmətinin satın alınması;
2. İnformasiya texnologiyaları avadanlıqlarının və ehtiyat hissələrinin satın alınması.

İddiaçılara təklif edilir ki, **https://www.etender.gov.az** Dövlət satınalmalarının vahid internet portalına (Portal) asan və ya elektron imzaları vasitəsilə daxil olsunlar və eTender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. eTenderdə iştirak etmək istəyən iddiaçılar Cisco IT avadanlıqlarına (SMARTNET) istehsalçı zəmanətlərinin 1 (bir) il müddətinə uzadılması xidmətinin satın alınması üzrə 100 AZN, İnformasiya texnologiyaları avadanlıqları və ehtiyat hissələri üzrə isə 50 AZN məbləğində müəyyən edilən iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra tələb olunan sənədləri və tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Tələb olunan sənədlərin siyahısı Portalda göstərilmişdir.

Azərbaycan Respublikasının Dövlət Neft Fondu
**Ünvan: AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165**
**VÖEN: 9900041961**
**H/h: AZ84NABZ01360400000000001944**
**Bank: Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**M/h: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T bik: NABZAZ 2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tələb olunan sənədləri (tender təklifi və təklifin təminatı istisna olmaqla) **01 aprel 2020-ci il saat 10:00-a,** tender təkliflərini (təklifin təminatı ilə birlikdə) **09 aprel 2020-ci il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. Təkliflər **10 aprel 2020-ci il saat 10:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

eTenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

# “Azercell”dən gənclərə növbəti iş imkanı

“Həyata keçirdiyi korporativ sosial layihələri ilə hər zaman öncül sıralarda qərarlaşan “Azercell Telekom” MMC gənclərin təhsili, peşəkar inkişafı və işlə təmin olunması istiqamətində fəaliyyətini davam etdirir”, - deyə şirkətin mətbuat xibməti xəbər verir.



Şirkət gənclərin əmək bazarına uyğunlaşmasına, öz ixtisasları üzrə uğurlu karyera qurmasına kömək, həmçinin onların işlə təmin olunmasına dəstək məqsədilə növbəti əmək yarmarkasında iştirak edib. Beynəlxalq Miqrasiya Təşkilatı, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətləri və Beynəlxalq Təlim və Layihə Mərkəzi MMC-nin birgə təşkilatçılığı ilə Lənkəran və Qubada təşkil olunan əmək yarmarkalarına “Azercell” nümayəndələri də qatılıb. “Azercell” şirkətinin İnsan Kapitalının İdarə Edilməsi şöbəsinin əməkdaşları yarmarka iştirakçılarına əmək bazarındakı son tendensiyalardan bəhs edib, şirkətdə mövcud olan vakansiyalar barədə məlumat verib və onları maraqlandıran sualları cavablandırıb. Xatırladaq ki, layihə çərçivəsində gənclərin inkişafına istiqamətlənmiş müxtəlif fəaliyyət növləri - özünüməşğulluğa, əmək bazarına çıxışa dəstək, potensialın artırılması və digər məsələlər yer alıb.

Qeyd edək ki, “Azercell” mütəmadi olaraq müxtəlif təhsil müəssisələri, dövlət qurumları və digər təşkilatlar tərəfindən təşkil olunan karyera sərgilərində fəal iştirak edir. 2019-cu ildə ölkənin müxtəlif ali təhsil müəssisələrində oxuyan 67 gənc şirkətin Tələbə proqramlarından yararlanıb, Azercell Akademiyası tərəfindən şirkətdaxili və müxtəlif təşkilat və qurumlarda 161 tədris sessiyaları keçirilib.

## Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası dəftərxana ləvazimatları, təsərrüfat malları, katric və tonerlərin satın alınması üzrə büdcədənkənar vəsait hesabına keçiriləcək

### *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 800 (səkkiz yüz) manat**

**Təşkilat: Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası**
**Bankın adı: Kapital Bankın Gənclik Filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**SWIFT BIK: AIIBAZ2X**
**H/Hesabı: AZ20AIIB38090019440138430118**
**VÖEN: 1500374911**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 03.04.2020-ci il saat 11:00-a qədər, tender təklifi və bank təminatını isə 13.04.2020-ci il saat 11:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 14.04.2020-ci il saat 11:00-da açılacaqdır.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılacaqdır.

***Tender komissiyası***

## “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi “İçərişəhər” Muzey Mərkəzi dövlət büdcəsi hesabına XIX əsrin məşhur fotoqrafı Yermakovun şəxsi kolleksiyasından ibarət fotosərginin (qalıq hissə) satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif olunur ki, dövlət satınalmalarının https://www.etender.gov.az/ - vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, təcrübə və maliyyə vəziyyəti. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Tenderdə iştirak etmək istəyənlər 200 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi “İçərişəhər” Muzey Mərkəzi Bakı şəhəri, Böyük Qala küçəsi, 41 (əlaqələndirici şəxs: Səbinə Bağırova, telefon: (012) 492-29-10) ünvanından ala bilərlər.

**Hesab: AZ81IBAZ38090019446242419204**
**VÖEN: 1702532651**
**Bank ABB Mərkəzi filial**
**Kodu: 805722**
**VÖEN: 9900001881**
**M/H: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **02 aprel 2020-ci il saat 11:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **10 aprel 2020-ci il saat 15:00-a** qədər “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi “İçərişəhər” Muzey Mərkəzi Bakı şəhəri, Böyük Qala küçəsi, 41 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **13 aprel 2020-ci il saat 11:00-da** “İçərişəhər” Muzey Mərkəzi Bakı şəhəri, Böyük Qala küçəsi, 41 ünvanında açılacaqdır.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Düzəliş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi “Aztelekom” MMC-nin “Azərbaycan” qəzetinin 03 mart 2020-ci il tarixli sayında dərc edilmiş tender elanında axırıncı iki abzas aşağıdakı kimi oxunmalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 01 aprel 2020-ci il saat 11:00-dək, tender təklifini və tender təklifinin bank təminatını isə 09 aprel 2020-ci il saat 17:00-dək vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri 10 aprel 2020-ci il saat 11:00-da vahid satınalma Portalında açılacaqdır.

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**

## Azercell abunəçilərinin nəzərinə

“Azercell Telekom” MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 05.03.2020-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı

### *satınalma sorğusunda iştiraka dəvət edir*

Predmet: Müxtəlif şəhər və rayonlara çatdırılmaq üçün arı ailələrinin, arıçılıq alətlərinin, arı yeşiklərinin və ləvazimatlarının satın alınması üçün Çərçivə Müqaviləsi

Öz təklifinizi bu elana əlavə olunan keçiddəki formalara uyğun olaraq hazırlayıb aşağıdakı e-mail ünvanına təqdim etməyiniz xahiş olunur: **procurement.aze@undp.org**

http://unazerbaijan.org/tenders/reference-re-announcement-long-term-agreement-lta-for-supply-and-delivery-of-bee-colonies-beekeeping-tools-beehive-boxes-and-equipment-on-the-basis-of-dap-incoterms-2010-to-various-project-locat/

Təkliflərin təqdim edilməsi üçün son tarix: 12 mart 2020-ci il saat 18:00

Hər hansı sualınız olduğu təqdirdə **procurement.aze@undp.org** ünvanına yazılı şəkildə müraciət etməyiniz xahiş olunur. Mövzu yerində “Sual. Arıçılıq” göstərməyiniz tövsiyə edilir.

## Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Dövlət Radiotezliklər İdarəsi Nəqliyyat vasitələrinə illik texniki servis xidmətlərinin, sürtkü materiallarının, şinlərin, akkumulyatorların və ehtiyat hissələrinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir.**

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə, yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu “Dövlət Radiotezliklər İdarəsi”nin Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə, 6-cı mərtəbə (əlaqələndirici şəxs: Qaryağdı Nağıyev, əlaqə telefonu: +99412598-21-37) yerləşən ünvanından ala bilərlər.

**İştirak haqqı: 750 (yeddi yüz əlli) manat.**

**H/H: AZ78AZPO91015461200420100072**
**VÖEN-i: 9900038911**
**Bankın adı: “Azərpoçt” MMC PF1**
**Bankın VÖEN-i: 9900037711**
**Bankın kodu: 691011**
**M/H: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə İştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərfin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin qiymətinin 1 faizi həcmində bank təminatı (zərfin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *iddiaçının qeydiyyatını təsdiq edən sənədlərin, nizamnamənin (əsasnamənin) notarial təsdiq edilmiş surətləri;*
- *işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə məlumatlar;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının analoji satınalma üzrə iş təcrübəsini təsdiq edən sənəd;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməmiş, vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi və müvafiq sosial orqanlarından arayış;*
- *əsas şərtlər toplusunda nəzərdə tutulan digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 01 aprel 2020-ci il saat 15:00-a kimi, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 09 aprel 2020-ci il saat 17:00-a kimi Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə; 6-cı mərtəbə, “Dövlət Radiotezliklər İdarəsi”nə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 10 aprel 2020-ci il saat 15:00-da Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## “Bakı Metropoliteni” QSC-nin “İçərişəhər” stansiyasında çiller soyutma sisteminin quraşdırılması işlərinin satın alınması üzrə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1. “Bakı Metropoliteni” QSC-nin “İçərişəhər” stansiyasında çiller soyutma sisteminin quraşdırılması işlərinin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı - 300 manat**

**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **01 aprel 2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **09 aprel 2020-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **10 aprel 2020-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Fövqəladə Hallar Nazirliyi Novruz bayramı ilə əlaqədar əhaliyə müraciət edib

Fövqəladə Hallar Nazirliyi (FHN) Novruz bayramı ilə əlaqədar yanğın təhlükəsizliyinə dair əhaliyə müraciət edib.

Müraciətdə deyilir: “Xalqımızın milli-mənəvi dəyərlərini özündə yaşadan Novruz bayramı zamanı hər birimizin arzusudur ki, bayram şənlikləri ən xoş duyğularla yaddaşlarımıza həkk olunsun. Bunun üçün isə Novruz bayramı ilə əlaqədar keçirilən müxtəlif mərasimlərdə yanğın təhlükəsi ilə üzləşməmək üçün bir sıra təhlükəsizlik qaydalarına, o cümlədən yanğın təhlükəsizliyi ilə bağlı bütün tələblərə ciddi əməl olunmalıdır”.

Bayram tonqalının ətrafına yığışan azyaşlıların mütləq böyüklərin nəzarətində olmasının vacibliyinin xüsusi vurğulandığı müraciətdə qeyd edilib: “Tonqal elektrik naqili, ağac, avtomobil, ev və digər yanar materiallardan kənarda yandırılmalı və tam sönənədək nəzarətdə saxlanılmalıdır. Tonqal üzərindən atılarkən ehtiyatsızlıq geyimin alışmasına, bədənin xəsarət almasına səbəb ola bilər. Yandırılan şamlar nəzarətsiz qalmamalıdır. Qaydalara biganəlik həyatımıza təhlükədir. Təhlükə zamanı 112-yə zəng edin!”.

**AZƏRTAC**

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Hematologiya və Transfuziologiya Mərkəzinin müdiriyyəti, kollektivi və Həmkarlar Komitəsi mərkəzin böyük elmi işçisi

**RƏNA ŞAMİL QIZI ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6950
Sifariş 756
Qiyməti 40 qəpik